**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN BEYNƏLXALQ HÜQUQ SUBYEKTLİYİ: HÜQUQİ VARİSLİK VƏ KONTİNUİTET PROBLEMİ

İxtisas: 5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"

Elm sahəsi: Hüquq

İddiaçı: **Səftər Mikayıl oğlu Rəhimli**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2024**

Dissertasiya Bakı Dövlət Universitetinin Hüquq fakültəsunun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: hüquq elmləri doktoru, professor
**Əfsər İsa oğlu Sadıqov**

Rəsmi opponentlər: hüquq elmləri doktoru, professor
**Oktay Firidun oğlu Əfəndiyev**

hüquq elmləri doktoru, professor
**Aytən İnqlab qızı Mustafayeva**

hüquq elmləri doktoru, dosent
**Səidə Bəhram qızı Həsənzadə**

hüquq elmləri doktoru, dosent
**Mehdi Kamal oğlu Abdullayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 27 oktyabr 2023-cü il tarixli 3-50/3-1-1-235/2023 saylı əmri əsasında Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən BED 2.44 Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: hüquq elmləri doktoru, dosent
**Turqay İmamqulu oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: hüquq üzrə fəlsəfə doktoru, dosent
**Əlizadə Qurbanəli oğlu Məmmədov**

Elmi seminarın sədri: hüquq elmləri doktoru, professor
**Rüstəm Fəxrəddin oğlu Məmmədov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Bir xalqın həyatda qalmasını şərtləndirən ən mühüm faktorlardan biri siyasi hakimiyyətini yaratmaq, onu gücləndirərək davamlılığını təmin etməkdir. Siyasi hakimiyyəti təsis etmək nə qədər çətin və mürəkkəbdirsə, dövlət quruculuğu mərhələsi yekunlaşdıqdan sonra onu möhkəmləndirmək və gələcək nəsillərə ötürmək də, bir o qədər çətindir. Dövlət yaratma prosesi nə qədər çətin və mürəkkəb olsa da, uğur qazanan xalqların dünya ölkələri siyahısında imzası bir qayda olaraq mübahisələndirilmir. Buna nümunə kimi Azərbaycan Xalq Cümhuriyyətini misal gətirə bilərik. Şərqdə ilk dəfə dövlət forması kimi xalq hakimiyyətini (respublikanı) təsis edən Azərbaycan Xalq Cümhuriyyəti yeni dövlətçilik mədəniyyətini meydana gətirməklə, həm də regionda yeni geosiyasi reallıqlar yaratmışdır.

Tarixdən məlumdur ki, şimalda Dərbənddən başlayaraq cənubda Həmədan və Zəncana, qərbdə İberiyadan başlayaraq şərqdə Xəzər dənizinə qədər olan ərazilər qədim dövrlərdən başlayaraq "Azərbaycan" adı ilə tanınmışdır[1]. Məhəmməd Həsən Vəliyev (Baharlı) 1921-ci ildə Bakıda nəşr etdiyi kitabında yazırdı: "61 3/4° və 68 1/5° şərq və 41 5/6° və 36 1/2° şimal uzunluq dairəsi arasında, yaxud Xəzər dənizi və Urmiya gölünün qərb sahilləri arasında və Samur çayı ilə Baqraudağ arasında yerləşən ölkə ta qədimdən bəri Azərbaycan (Qafqaz və İran) adı ilə məşhurdur"[2]. Eramızdan əvvəl III minillikdə Azərbaycan ərazisində ilk dövlət qurumları, e.ə. I minillikdə isə Azərbaycanın cənub ərazilərində daha təkmil və geniş əraziləri əhatə edən dövlətlər olan Manna (e.ə.

---

[1] Zeynaloğlu, C. Müxtəsər Azərbaycan tarixi / C.Zeynaloğlu. – Bakı: Azərbaycan Dövlət Kitab Palatası, – 1992. s.10; İsmayılov, R. Azərbaycan tarixi / R.İsmayılov. – Bakı: Azərnəşr, – 1993. s.8; Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərnəşr, – 1989. s.136

[2] Vəliyev (Baharlı), M.H. Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk) / M.H.Vəliyev (Baharlı). – Bakı: Azərbaycan, – 1993. s.3

IX əsrin ortaları – e.ə. 590-cı il) və Atropatena (e.ə. 323 – b.e. 20-ci illəri) dövlətləri, Araz çayından şimaldakı ərazilərdə isə Albaniya (e.ə. IV əsrin II yarısı – 705-ci il) dövləti yarandı və bu dövlət qurumları regionun hərbi-siyasi tarixində mühüm rol oynadılar. III əsrdə müvəqqəti olaraq Azərbaycan sasanilərin təsirinə düşür. Bu zaman Azərbaycanın cənubundan (Atropatena) fərqli olaraq, ölkənin şimalı (Albaniya) nominal da olsa müstəqilliyini qoruya bilir. Hətta Sasani və Ərəb xilafəti dövründə Azərbaycanın bütün ərazilərinin vahid iqtisadi məkan, vahid din, mədəniyyət kimi amillər ölkədə vahid xalqın və dilin təşəkkülünün qarşısını ala bilməmişdir.

XI əsrin ortalarında Böyük Səlcuq imperiyası, həmin dövrlərdə və sonra şimalda Şirvanşahlar dövləti, eyni zamanda Kür çayından cənubdakı tarixi ərazilərimizi özündə birləşdirən Atabəylər (Eldənizlər) dövləti (1136-1225) Azərbaycan dövlətçiliyi tarixində çox mühüm rol oynadılar. XIII əsrin 20-ci illərindən Hülakilər (Elxanilər) dövlətinin (1258-1357) tərkibinə daxil edilsə də[3] XV əsrdə Azərbaycan ərazisində yaranan Qaraqoyunlu (1410-1468) və Ağqoyunlu (1468-1501/1503) dövlətləri, XVI-XVIII əsrlərdə mövcud olmuş Səfəvi imperiyası (1501-1736) və Nadir şahın qurduğu Əfşar imperiyası (1736-1747) bütün Azərbaycan torpaqlarını özündə birləşdirməklə yanaşı, qonşu ölkələri də imperiyanın tərkibinə daxil edərək dövrün geniş ərazili və qüdrətli imperiyalarına çevrildilər. Bu imperiyalar Azərbaycan, Türk mənşəli sülalələr tərəfindən idarə olunurdu. Səfəvi imperiyası dövründə Azərbaycan ərazisi 400 min km$^2$-dən çox idi[4]. 1747-ci ildə Nadir şahın ölümündən sonra Azərbaycan ərazisində 20 xanlıqdam ibarət xaotik dövr başlayır[5]. 1747-ci ildən

---

3 Piriyev, V. Azərbaycan XIII-XIV əsrlərdə / V.Piriyev. – Bakı: Nurlan, – 2003. s.97

4 Piriyev, V. Azərbaycanın tarixi-siyasi coğrafiyası / V.Piriyev. – Bakı: Müəllim, – 2006. s.71-72

5 Şükürov, K. Azərbaycan tarixi: 3 hissədə / K.Şükürov; Ən qədim zamanlardan bizim günlərədək: Dövrlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər. II hissə. –

etibarən yarım əsrdən çox davam edən siyasi böhran və pərakəndəlik Azərbaycan ərazisini işğal etməyə çalışan yadelli işğalçılar üçün əlverişli şərait yaratdı. XVIII əsrin sonlarına yaxın hakimiyyətə yiyələnən Qacarlar (1796-1925) da mərkəzi hakimiyyəti tam qura bilmədilər və 1803-cü ildən başlayan Rusiya işğalı Azərbaycanın 1813-cü ildə Gülüstan sülhü ilə və 1828-ci ildə bağlanan ağır şərtli Türkmənçay müqaviləsi ilə parçalanmasına gətirib çıxardı[6]. Bu müqavilələrlə Arazdan şimaldakı Azərbaycan torpaqları Rusiyanın, Arazdan cənubdakı Azərbaycan torpaqları isə Qacarlar dövlətinin (indiki İran) tərkibinə qatıldı. Beləliklə, Azərbaycanın tarixi ərazilərinin bütövlüyü pozuldu.

I Dünya müharibəsində məğlub olan Rusiya imperiyasının 1917-ci ildə süqutu Cənubi Qafqaz xalqlarının müstəqilliyinin bərpasına rəvac vermiş oldu. 1918-ci il may ayının 28-də qəbul edilmiş İstiqlal Bəyannaməsi və Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi ilə XIX əsrin əvvəllərində itirilmiş Azərbaycan dövlətçiliyi yüz ildən artıq davam edən müstəmləkə əsarətindən sonra bərpa edilmiş oldu. İstiqlal Bəyannaməsində deyilirdi ki, Azərbaycan xalqı hakimiyyət haqqına malik olan müstəqil hüquqi dövlətdir[7]. Bununla, Azərbaycan dövləti beynəlxalq birlik tərəfindən de-fakto tanınır və Azərbaycan Xalq Cümhuriyyəti kimi beynəlxalq hüquq subyektliyi əldə edilir. Lakin 1920-ci ildə bolşevik Rusiyası tərəfindən təcavüzə məruz qalan Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyət formasını mühacirətdə

---

Bakı: Bakı Universiteti nəşriyyatı, – 2004. s.176,186, 197-198; Piriyev, V. Azərbaycanın tarixi-siyasi coğrafiyası / V.Piriyev. – Bakı: Müəllim, – 2006. s.83-91

[6] Azərbaycan tarixi: [7 cilddə] / məsul red. M.Ə.İsmayılov. – Bakı: Elm, c. 4. – 2000. s.48; Süleymanov, M. Türkmənçay müqaviləsi / M.Süleymanov. – Bakı: Elm və Təhsil, 2015. s.584-585

[7] Azərbaycan Cümhuriyyətinin İstiqlal Bəyannaməsi (Tiflis: 28 may 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 894, siyahı № 10, iş № 192, vərəq – 3; Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları / məsul red. A.Ə.Paşayev. – Bakı: Adiloğlu, – 2006, s.122,124,127

davam etdirmək məcburiyyətində qalır. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyinin beynəlxalq birlik tərəfindən de-fakto tanınması, onun milli atributlarında xalqın iradəsinin güclü ifadəsi işğalçı bolşevik Rusiyasını da məcbur edir ki, Sovet Azərbaycanı "dövlətini" təsis etsin. 1991-ci ilə kimi davam edən işğal dönəmi SSRİ-nin süqutu ilə nəticələnir. Azərbaycan yenidən müstəqilliyini bərpa etmiş və Azərbaycan Xalq Cümhuriyyətinin davamlılığımda (kontinuitetində) özünün beynəlxalq hüquq subyektliyini bərpa etmişdir.

Tədqiqat işində Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyinin varislik və yaxud da kontinuitet (davamlılıq) istiqamətində öyrənilməsi nə kimi əhəmiyyət kəsb edir sualı cavablandırılır. Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyinin qiymətləndirilməsi zamanı onun bəyan etdiyi ideologiyanın, ərazisi və əhalisinin (xalqının) əsasında hüquqi əhəmiyyəti əsas alınır. Bu dövlətin qəbul etdiyi atributlarla özündən əvvəlki Azərbaycan dövlətləri ilə, onların əhalisi və ərazisi ilə hansı oxşar sosial, coğrafi, siyasi identikliyin daşıyıcısı olması ilə yanaşı, həm də ərazisinin işğalından sonra hansı siyasi-hüquqi keyfiyyətdə suverenliyini davam etdirməsi və ya miras buraxması məsələsinin müəyyən edilməsi dövlətçiliyin yaşadılması baxımdan olduqca vacib məsələdir. Xüsusilə də, hər hansı bir dövlətin təcavüzə məruz qalması ilə onun davamlılığının (kontinuitetinin) dövlətlərin praktikasında nə kimi qarşılıqlığının olması, beynəlxalq hüququn və siyasətin rolunun müəyyən edilməsi həlli zəruri olan məsələlərdəndir. Hüquqi varislikdən fərqli olaraq dövlətin davamlılığı onun yenidən işğalına "iddialı olmanı" bir növ önləməyə xidmət etməkdədir. Həmçinin "dövlət yaratmış xalq" anlayışını bərqərar edir. Digər tərəfdən, varislik qaydasında yenidən yaradılma tanınma kimi siyasi problemi meydana gətirir və bununla da tanınan dövlət, o cümlədən hökumət (məsələn, müasir dövrdə Əfqanıstanda Taliban hökuməti) üçün həlli vacib olan bir sıra ciddi beynəlxalq xarakterli iqtisadi, sosial və s. problemlərin

həlli zərurəti meydana gəlir. Dövlətin daxili sabitlik və təhlükəsizliyi də bu problemlərin həllindən asılı olur.

Post çarizm məkanında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Finlandiya, Polşa, Latviya, Litva, Estoniya, Gürcüstan və digər dövlətlərin də yaranması dövrünə təsadüf edir. Sonradan bu dövlətlərin təcavüzə məruz qalmaları ilə onların beynəlxalq hüquq subyektliyinin davam etdirilib - etdirilməməsi və müstəqilliyin bərpası zamanı tanınması problemi birmənalı hüquqi cavablandırılma zərurəti yaratmışdır. Bəzi müəlliflər məsələnin "pozitiv beynəlxalq hüquq"[8] və ya "hüquq sistemi"[9] çərçivəsində qiymətləndirilməsinin mümkün olmadığı qənaətini də irəli sürməkdədirlər. Həmin müəlliflərin mövqeyi ilə o halda razılaşmaq olar ki, əlbəttə kontinuitetlə (necə ki, tanınma ilə) əlaqəli kodifikasiya aktı yoxdur, lakin beynəlxalq hüququn digər aktlarında, adət hüquq praktikasında belə normaların olması istisna deyil. Digər tərəfdən, XX əsrin 20-ci illərinin əvvəllərində Rusiyanın müstəqil dövlətlərə qarşı təcavüzünün "dövrün hüquq sistemi çərçivəsində qiymətləndirilməsinin mümkün olmaması qənaəti"[10] də mübahisəlidir. Beynəlxalq hüququn məntiqi ilə dövlətin "qurucu ünsürlərindən" çıxış etməklə kontinuitetlə bağlı məsələnin həlli mümkündür[11]. Qanunsuz anneksiyanın qadağan edilməsinin ilk əsasları Millətlər Liqasının Statutunda (m.10), beynəlxalq humanitar hüququn döyüş qaydaları üzrə ilk

---

[8] Dörr, O. Die Incorporation als Tatbestand der Staatensukzession / O.Dörr. – Berlin: Duncker & Humblot, – 1995, p.48-49; Zimmermann, A. Staatennachfolge in völkerrechtliche Vertrage. Zugleich ein Beitrag zu den Moglichkeiten und Grenzen völkerrechtlicher Kodifikation / A.Zimmermann. – Berlin: Springer Berlin Heidelberg, – 2012, p.50-51

[9] Aron, R. Peace and War: A Theory of International relations / R.Aron; R. Howard and A. Buker Fox. Garden City. NY: Doubleday, 1966, p.1 08

[10] Aron, R. Peace and War: A Theory of International relations / R.Aron; R. Howard and A. Buker Fox. Garden City. NY: Doubleday, 1966, p. 108

[11] Jant, Y. State Continuity in the Absence of Government: The Underlying Rationale in İnternational law // – European Journal of International law, – 2021. Vol. 32, Issue 2, p. 485

kodifikasiya normaları 1907-ci il Haaqa Konvensiyalarında təsbit edilmişdi.

Tədqiqat işində qarşıya qoyulan əsas məsələ də Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyinin Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyi ilə identikliyinin qiymətləndirilməsi məsələsi təşkil edir. Dövlətlərin tanınmasında olduğu kimi beynəlxalq hüquq subyektliyinin kontinuitetinin qəbulu da tanıyan dövlətlərin iradəsindən asılıdır. Müstəqilliyin bərpası zamanı bu iki problemin fərqli xüsusiyyətlərin bilərəkdənmi, yoxsa bilmədən bəzi aktlarda Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyindən, onun davamlılığından (kontinuitetindən) deyil, "hüquqi varisliyindən", "varisliyindən" bəhs edilir. Bu hal Azərbaycan Respublikasının həm beynəlxalq müqavilələri (o cümlədən yenidən tanınma), həm də daxili aktları üçün xarakterik olub. Baxmayaraq ki, hər iki dövlətin bir çox atributları (məsələn, dövlət rəmzləri, xalqın sosial, milli - etnik əlamətləri, bəyan edilmiş siyasət, idarəçilik forması və inzibati ərazi quruluşu, coğrafi ərazi mənsubiyyəti və s.) tamamilə identikliyə malikdir. Ona görə də Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyinin hansı keyfiyyətdə təsisi, yoxsa bərpasının müəyyən edilməsinin həlli xarici siyasət kursu baxımından da əhəmiyyətlidir. Nəzərə alsaq ki, dövlətlərin yaranması və tənəzzülü siyasət elminin də problemlərindən olduğu üçün Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyinin öyrənilməsində hüququn və siyasətin "payı" müəyyən edilməlidir. Dövlətlərin davranışlarını formalaşdıran siyasi normaları təhlili etmədən hüquq normalarının məzmununun müəyyənləşdirilməsi də səmərəli olmaz. Beynəlxalq "hüquq normaları əxlaq və siyasət normaları ilə qarşılıqlı əlaqəyə malikdir"[12], onlar olmadan hüquq normaları implementasiya edilə bilməz. Bu anlamda dövlət müstəqilliyinin bərpası zamanı bu iki

---

[12] Tomuschat, C. Ethos, Ethics and Morality In International Relations. EPIL – 9, – 1986, p. 127-133

problemin həllində həm hüququn, həm də siyasətin yerinə diqqət edilməlidir. İfadə edilən problemlərin həlli Azərbaycan beynəlxalq hüquq doktrinası, xarici siyasət kursu üçün nə qədər əhəmiyyət kəsb edirsə, bir o qədər də beynəlxalq hüquq və beynəlxalq siyasət üçün əhəmiyyətlidir.

Tədqiqat mövzusunun işlənmə dərəcəsinə gəldikdə, Azərbaycan beynəlxalq hüquq ədəbiyyatında Azərbaycan Respublikasının subyektliyinin fraqmentar araşdırılmasını L.H.Hüseynovun[13], Ə.İ.Sadıqovun[14], R.F.Məmmədovun[15], T.İ.Hüseynovun[16], Ə.İ.Əliyevin[17], R.K.Məmmədovun[18], Ə.Q.Məmmədovun[19] və digər müəlliflərin əsərlərində görmək mümkündür. Lakin Azərbaycan beynəlxalq hüquq ədəbiyyatında konkret olaraq Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyi, varisliyi və kontinuitetindən, onun ayrı-ayrı aspektlərindən bəhs edən hər hansı bir tədqiqat da yazılmayıb. Əsasən siyasət (Mustafayev, R.[20], Nəsibli, N.[21]) və tarix elmləri

---

[13] Гусейнов, Л.Г. Международные обязательства государств в области прав человека / Л.Г.Гусейнов. – Баку: Hüquq ədəbiyyatı, – 1998. 188 с.

[14] Sadıqov, Ə. İ. Azərbaycan Xalq Cümhuriyyətinə qarşı Rusiyanın hərbi təcavüzü nəticəsində Ermənistan üçün təsis edilən "ümumtanınmış" ərazi // Bakı Universitetinin xəbərləri, Sosial-siyasi elmlər seriyası, – 2023. № 2, s.138-156

[15] Məmmədov, R.F., Abdullazadə, F.Ş. Beynılxalq təşkilatlar hüququ /, F.Ş.Abdullazadə. – Bakı: Qanun nəşriyyatı, – 2023. – 480 s.

[16] Гусейнов Т.И. Международные и национальны-правовые аспекты экологической безопасности / Л.И.Гусейнов. – Баку: Бакы Университети, – 2017. – 348 с.

[17] Əliyev, Ə. İ. İnsan hüquqları. Dərslik / E.Ə.Əliyev. – Bakı: Nurlar nəşriyyatı, 2019. – 352 s.

[18] Məmmədov, R. Beynəlxalq cinayət hüququ və Azərbaycan Respublikasının cinayət qanunvericiliyi / R.Məmmədov. – Bakı NAT Co MMC, – 2012. – 312s.

[19] Beynəlxalq hüquq: Dərslik / Ümumi hissə. – Bakı: Ləman Nəşriyyat Poliqrafiya MMC, – 2018 – 420 s.

[20] Mustafayev, R. Azərbaycan dövlətçiliyi: özümüzü və dünyanı dərketmə yolunda / R.Mustafayev. Bakı: Elm və Təhsil, – 2015. – 240 s.

[21] Nəsibli, N. Azərbaycan Demokratik Respublikasının xarici siyasəti / N.Nəsibli. – Bakı: Qanun, – 2011. – 328 s.

(Musayev, İ.[22], Musa, İ.[23]) kontekstində Azərbaycan Xalq Cümhuriyyətinin yalnız varisliyi məsələləri üzrə az saylı tədqiqatlara rast gəlmək mümkündür. Kateqorik olaraq məsələnin varislik istiqamətdə tədqiqini də yanlış hesab edirik.

Beynəlxalq hüquq elmində dövlətlərin kontinuiteti üzrə tədqiqatlara gəlincə, xüsusi olaraq beynəlxalq hüquqda dövlətlərin yaranması Krouford J.[24], beynəlxalq hüquqda dövlətlərin identikliyi Kunz, J.L.[25], kontinuitetdə identiklik Cansacchi, G.[26], təcavüz nəticəsində dövlətin şəxsiyyətinin hüquqi aqibəti Çerniçenko S.V.[27], Estoniya Respublikasının bərpası Kiris, A.[28], Estoniya, Latviya və Litvanın sovet anneksiyası ilə həmin dövlətlərin kontinuitetinin beynəlxalq hüquqi tənzimlənməsi Myalkso L.[29], beynəlxalq hüquqda dövlətlərin identikliyi və

---

[22] Musayev, İ. Azərbaycanın xarici siyasəti (XX əsr). II hissə. Dövlətlərarası münasibətlər və Azərbaycan (aprel 1920-oktyabr 1991-ci illər) / İ.Musayev. – Bakı: Təknur, – 2004. – 512 s.

[23] Musa, İ. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu: böyük və qonşu dövlətlərin mövqeyi // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2016. № 2, – s. 47-52

[24] Crawford J, The Creation of States in International Law / J.Crawford. – Oxford University Press. SECOND EDITION, – 2006. – 870 p.

[25] Kunz, J.L. Identity of States under International law // The American Journal of International Law, – 1955, vol. 49, No. 1, p. 72.

[26] Cansacchi, G. Identite et continuite des sujets intenationaux // RCADI, – 1970, p. 55-56

[27] Черниченко, С.В. Принцип самоопределения народов (современная интерпретация) // Московский журнал международного права, – 1996. № 4, с. 3-21.; Черниченко, С.В. Теория международного права. В 2-х томах. Том 2: Старые и новые теоретические проблемы / С.В.Черниченко. – Москва: Издательство "НИМП", – 1999. – 531 с.; Черниченко, С.В. Является ли Россия продолжателем или правопреемником СССР? // Белый мир. / http://www.whiteworld.ru/rubriki/000122/000/01062806.htm

[28] Kiris, A. Restoration of the Independence of the Republic of Estonia. Selection of legal Acts (1988-1991) / A.Kiris. – Tallinn: Estonian Institute for Information, 1991. – 103 p.

[29] Мялксоо, Л. Советская аннексия и государственный континуитет: международно-правовой статус Эстонии, Латвии и Литвы в 1940-1991 гг. и

kontinuiteti Marek, K.[30], keçmiş SSRİ və Yuqoslaviya dövlətlərinin kontinuiteti və varisliyi Mullerson, R.[31], Baltik dövlətlərinin kontinuiteti Ziemele I.[32] və d. müəlliflər tərəfindən tədqiq edilmişdir. Lakin təqdim edilən dissertasiya tədqiqatında isə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyinin Azərbaycan Respublikasının şəxsində davam etdirilməsinin ideoloji, sosioloji, coğrafi-ərazi və tarixi məzmunu beynəlxalq hüquq prizmasında araşdırılır. Eyni zamanda dövlətlərin kontinuitetinin beynəlxalq hüquqi tənzimlənməsindəki boşluq müəyyən edilərək onun aradan qaldırılması üzrə beynəlxalq aktın standartları təklif edilib.

Tədqiqat mövzusunun predmeti üzrə qarşıya qoyulan məsələlərin həlli Azərbaycan dövlətçiliyinin davamlılığının təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir. Yalnız bu tədqiqat işi çərçivəsində Azərbaycan Xalq Cümhuriyyətinin davamlılığı üzrə məsələlər həll edilməyə çalışılmışdır.

Tədqiqatın nəzəri əsası kimi Akehursi M., Beato Andrev M., Bedjaoui M., Benvenisti E., Brounli J., Burgental T., Çerniçenko S.V., Çernyavskiy A.Q., Degan V.D., Dosvald-Bek L., Eide A., Fenvick Ch., Franck T.M., Xaylbronner Kay, Xeyko Kryuqer, Xenkerts J.M., Greenwood C., Hannum H., Henkin L., Hofman R.,

---

после 1991 г. Исследование конфликта между нормативностью и силой в международном праве / Л.Мялксоо. – Tartu University Press, 2015. – 400 с.; Mälksoo, L. Illegal annexation and state continuity: The Case of the Incorporation of the Baltic States by the USSR: a Study of the Tension Between Normativity and Power in International Law / L.Mälksoo. Martinus Nijhoff Publishers, – 2003, 373 p.

[30] Marek, K. Identity and Continuity of States in International Law / K.Marek. 2e ed. – Geneve: E. Dros, – 1968. p. 548.

[31] Mullerson, R. The Continuity and Succession of States, by Reference to the Former USSR and Yugoslavia // International and Comparative Law Quarterly, –1993. Vol. 42, p. 493-510.

[32] Ziemele, I. State continuity and Nationality: The Baltic States and Russia. Past, Present Future as Defined by International Law / I.Ziemele. – Leiden / Boston: Martinus Nijhoof Publishers, 2015. 452 p.

Hurst H., Jellinek G.. Kasseze A., Kelsen H., Kiris A., Krouford J., Kolosov Y.M., Kunz J.L., Lauterpaxt X., Lauri Myalkso, Lukaşuk İ.İ., Malkolm Şh., Marceelo G.K., Marek K., Martens G., Meissner B., Mördok C., Müllerson R.A., Nabulsi K., Oppenheim L., Picciotti R., Rifaat A., Shaw M.N., Shindler D., Simma B., Toman J., Tomuşat C., Timçenko L.D., Vitas R.A., Verdross A., Yoshifumi Tanaka, Ziemele I., Zimmermann A. və d. müəlliflərin əsərlərindən istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyindən doğan hüquqi varislik və ya dövlətin kontinuitetinin (davamlılığının), Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyi ilə Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyinin identikliyinin (oxşarlığının) müəyyən edilməsi üzrə ictimai münasibətlər təşkil edir.

Tədqiqatın predmetini Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyi, onun təcavüzə məruz qalması ilə beynəlxalq hüquq subyektliyinin, şəxsiyyətinin davam etdirilib – etdirilməməsi, bundan sonra Azərbaycan xalqının, dövlətçiliyinin hansı formada - hüquqi varislik, yoxsa dövlət kontinuiteti formasında davam etdirməsi, Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyi ilə Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyinin identikliyinin müəyyən edilməsi məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat mövzusunun məqsədini Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyindən, dövlətçiliyin davamlılığından bəhs edərkən tərəfsizliyi gözləmək şərtilə bu sahədə mövcud olmuş beynəlxalq hüquq normalarını qiymətləndirmək, Azərbaycan dövlətinin *kontinuitetinin* subyektiv və obyektiv nüanslarını göstərmək təşkil edir. Eyni zamanda Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyinin Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyi ilə *identikliyi* və bu identikliyin dövlətçilik üçün hüquqi – siyasi əhəmiyyəti göstərilir. Tədqiqat işinin məqsədinin

realizə edilməsi istiqamətində həll edilməli olan bir sıra **vəzifələr** müəyyən edilmişdir:

– dövlətin əlamətlərinə doktrinal baxışın öyrənilməsi;

– əhalinin (xalqın) suverenliyinin davamlılığı;

– dövlətin suverenliyi və qanunsuz anneksiya halında beynəlxalq hüquq subyektliyinin;

– dövlətin davamlılığında ərazi suverenliyinin müəyyən edilməsi üçün beynəlxalq hüquqda dövlətin əlamətlərinin tədqiqi;

– dövlətin hüquqi varisliyinin anlayışı, əsaslarının və dövlətin hüquqi varisliyinin formalarının, beynəlxalq hüquqi varisliyin növləri və obyektinin tədqiqi;

– beynəlxalq münasibətlərdə qanunsuz anneksiya zamanı dövlətlərin fasiləsizliyi konsepsiyasının;

– kontinuitet və beynəlxalq hüquq subyektliyinin identikliyi, kontinuitetsiz davamlılıq probleminin öyrəmilməsi;

– Azərbaycan Xalq Cümhuriyyətinin maddi ərazi şərtinin siyasi-tarixi aspekti;

– Batum konfransında ərazi-sərhəd məsələsində Azərbaycan Xalq Cümhuriyyətinin mövqeyinin açıqlanması;

– Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və həmin ərazilərin etnik-dini (əhali) strukturunun müəyyən edilməsi;

– Ərazi mübahisələrinin Azərbaycan-Gürcüstan beynəlxalq hüquqi həll modelinin əhəmiyyətini göstərmək;

– Cənubi Qafqaz dövlətlərinin beynəlxalq (Paris/ Versal) hüquq sistemi ilə tanınmasının siyasi-hüquqi əhəmiyyətinin müəyyən edilməsi;

– Azərbaycan Xalq Cümhuriyyətinin ikitərəfli beynəlxalq müqavilələrinin və;

– işğal dönəminin beynəlxalq hüququnun: 1907-ci il Haaqa qaydaları və Millətlər Liqasının Nizamnaməsinin təhlili;

– Rusiyanın anneksiyasına beynəlxalq münasibətin qiymətləndirilməsi;

– Beynəlxalq hüququn pozulması ilə Azərbaycan Xalq Cümhuriyyətinin kontinuitetinin yaranması və;

– sürgündə Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin davamı və diplomatik missiyaların fəaliyyətinin qiymətləndirilməsi;

– beynəlxalq hüquq baxımından ASSR-in hüquqi vəziyyətinin;

– sovet hakimiyyətinin tanınmaması üzrə ümumxalq üsyanlarının;

– milli azadlıq və insanlıq əleyhinə cinayətlərin tədqiqi;

– Azərbaycan Xalq Cümhuriyyəti ideologiyasını (dövlətin davamlılığını) qaldırmaq üçün (deportasiya, soyadlarının və əlifbanın dəyişdirilməsi ilə əlaqəli) soyqırım cinayətlərinin tədqiqi;

– Azərbaycan Xalq Cümhuriyyətinin (Zəngəzur, Mehri və d.) ərazilərinin Rusiya və Ermənistan arasında bölüşdürülmə-sindəki qanunsuzluğun göstərilməsi;

– Rusiya tərəfindən Dağlıq Qarabağın siyasi manipulyasiya obyektinə çevrilməsi və 1988-ci il SSRİ (Rusiya) hərbi qüvvələri ilə Azərbaycan ərazilərinin növbəti işğal mərhələsinə hüquqi qiymət verilməsi;

– Azərbaycan Xalq Cümhuriyyətinin kontinuitetinin nəticəsi kimi Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyinin bərpasının konstitusiya əsaslarının öyrənilməsi;

– diplomatik münasibətlərin bərpası zamanı hüquqi varislik və kontinuitet probleminin qiymətləndirilməsi;

– diplomatik münasibətlərin bərpasında zaman faktorunun neqativ təsirlərinin tədqiqi;

– insan hüquqları üzrə beynəlxalq öhdəliklərin Azərbaycan Respublikası tərəfindən qəbulu xüsusiyyətləri və Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsinin təhlili;

– Azərbaycan Respublikasının ərazisi və simvollarının Azərbaycan Xalq Cümhuriyyəti timsalında (*uti possidetis*) müqayisəsi;

– SSRİ-nin borclarına münasibətdə *tabula rasa* ilə varislikdən imtina və Azərbaycan xalqına vurulan zərərə görə Rusiyanın beynəlxalq hüquqi məsuliyyətinin müəyyən edilməsinin tədqiqi.

**Tədqiqat metodlarını** hüquq elmində hamılıqla qəbul edilmiş ümumnəzəri və xüsusi elmi metodlar təşkil edir. Tədqiqat işində tarixilik, müqayisəli, konkret-sosioloji, sistemli, formal-məntiqi və digər elmi metodlardan geniş istifadə olunmuşdur.

Tədqiqatın normativ əsasını dövlətlərin beynəlxalq hüquq subyektliyi, əlamətləri üzrə beynəlxalq müqavilələr, o cümlədən Quru ərazisində döyüş qaydaları üzrə 1907-ci il Haaqa Konvensiyası, Millətlər Liqasının Statutu (1920), Dövlətlərin hüquq və vəzifələri üzrə 1933-cü il Montevideo Konvensiyası, BM Nizamnaməsi, İnsan hüquqlarının ümumi Bəyannaməsi, Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt, dövlətlərin varisliyi üzrə beynəlxalq müqavilələr, eyni zamanda Azərbaycan Respublikasının iştirakçısı olduğu digər beynəlxalq müqavilələr, daxili qanunvericilik aktları təşkil edir. Tədqiqat işi hazırlanarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Dövlət müstəqilliyi haqqında Konstitusiya aktından və digər aktlardan geniş istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyanın elmi yeniliyi və faydalılıq əmsalı aşağıdakı yeni elmi müddəalarla müdafiəyə təqdim edilir:

1. Xalqın iradəsi ərazi vahidini siyasiləşdirməklə bərabər siyasi hakimiyyətin də xarakterini müəyyən edir. Həm beynəlxalq hüquq (İqtisadi, sosial və mədəni hüquqlar üzrə beynəlxalq Pakt (1966) m.1; Mülki və siyasi hüquqlar üzrə beynəlxalq Pakt (1966) m. 1), həm də daxili qanunvericilik ( Azərbaycan Respublikası Konstitusiyası m. 1 və 2) xalqın iradəsini dövlətin mövcudluğunun mütləq və ilkin şərti kimi təsbit edir. Xarici təcavüz halında dövlətin şəxsiyyəti itirilsə də beynəlxalq hüquq subyektliyi xalqda qalmış olur.

2. Hüquq varisliyi hökumətlərin, rejimlərin dəyişilməsi halında yaranmır, eləcə də bu dəyişilmənin qeyri - konstitusiya qaydasında olub-olmamasından da asılı olmur. Beynəlxalq hüquq baxımından dövlətin əsas elementlərindən - əhali və hakimiyyətin dəyişilməsi hüquq varisliyi üçün hər hansı bir nəticə yaratmır. Yalnız, digər əsas elementin - ərazinin dəyişməsi hüquq varisliyi problemini yaradır. Beynəlxalq hüquq varisliyi müəyyən bir ərazidə beynəlxalq münasibətlərə görə sələf dövlətin hüquq və vəzifələrinin yeni yaranan dövlətin hüquq və vəzifələri ilə *fasiləli qaydada* əvəzlənməsi olaraq yeni beynəlxalq hüquq subyektinin meydana gəlməsini ehtiva edir.

3. Dövlətçilikdə davamlılıq (kontinuitet) daimilik, sabitlik və təhlükəsizlik anlamına malikdir. Daimilik, sabitlik və təhlükəsizlik hüquqi varislikdən fərqli olaraq təcavüzə uğrayan əvvəlki dövlətin beynəlxalq hüquq və vəzifələrini də ehtiva edir. Dövlətçiliyin bərpası zamanı kontinuitet konsepsiyasına əsasən əvvəlki dövlətin beynəlxalq hüquq subyektliyinin həcmi dəyişilmədən yeni beynəlxalq hüquqi şəxsə transfer edilir.

4. Kontinuitet konsepsiyası dövlətin davamlılığını və beynəlxalq hüquq subyektliyinin davamlılığını ehtiva edir. Dövlətin davamlılığı isə identikliyə (oxşarlığa) əsaslanmaqla beynəlxalq hüquq subyektliyinin davamlılığını və identiklik olmadan kontinuitet formasında ola bilər. Beynəlxalq birlik Azərbaycan Respublikasını Azərbaycan Xalq Cümhuriyyətinin identik kontinuiteti formasında qəbul etməsə də konstitusiya hüququ (Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı) identiklik siyasətini təsbit etməkdədir.

5. Dövlətin beynəlxalq hüquq subyektliyinin kontinuiteti və identikliyi üzrə ümumtanınmış normativ tənzimetmə və praktika formalaşmasa da, dövlət müstəqilliyinin bərpası zamanı özünü tanıtma üzrə hüquq siyasəti, siyasi institutlara bağlılıq mühüm əhəmiyyət kəsb edir. Əvvəlki, beynəlxalq hüquq subyektliyi kəsilmiş (şəxsiyyəti "susdurulmuş") müstəqil dövlətin atributlarının qəbulu onun xalqdan (əhalidən) gələn iradə ilə

legitimliyinin qəbulu anlamı kəsb edir, həm də bərpa edilən dövlətin özünə münasibətin göstəricisidir və kontinuitetdə əsas olan əlamət də budur. Özünə münasibətin göstəricisi kimi statusdan hüquq yaranır.  Xalqımızın 1991-ci il 30 avqust tarixli Müstəqillik Bəyannaməsi və konstitusiya səviyyəsində bəyan edilən (18 oktyabr tarixli Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı) mövqeyi onun bərpa edilən dövlətinin əvvəlkinin beynəlxalq hüquq subyektliyinin kontinuitetinə və identikliyinə istinad  etməsidir.

6. Cənubi Qafqaz respublikalarının sərhədlərin delimitasiyası və demarkasiyası üçün Ermənistanın *etnoqrafik prinsiplərə*, Azərbaycanın *etnoqrafik və coğrafilik prinsipinə*, Gürcüstan tərəfinin isə *tarixilik prinsipinə* istinad edilməsində də Azərbaycan tərəfi haqlı olub. Gürcüstan tərəfinin irəli sürdüyü *tarixilik prinsipinə* istinad edilməsinə qarşı da, Azərbaycan tərəfi haqlı və arqumentli olmuş, sonuncu prinsipə istinad edildiyi halda da dövlətin Motevideo Konvensiyasında ərazidəki əhalinin tarixi məskunlaşması baxımından  bütün Cənubi Qafqazın Azərbaycan Xalq Cümhuriyyətinə məxsus olması qəbul edilməlidir.

7. 1920-ci il aprelin 27-də Bakının işğal edilməsi ilə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin mühacirət (sürgün) dövrü başlayır. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyət formasında identik  kontinuiteti onun həm uzun müddətli mühacirət (sürgün) dövründən, həm də işğalın ilk dövrlərinə təsadüf edən diplomatik missiyaların fəaliyyətindən meydana gəlir. Azərbaycan Xalq Cümhuriyyəti mühacirət hökuməti Baltikyanı dövlətlərdən fərqli olaraq tam legitim təmsilçiliyə malik olub.

8. Sürgün hökumətinin mövcudluğu ərazisi işğal edilmiş dövlətin yalnız bir komponentidir. Qanunsuz anneksiya işğala məruz qoyulan dövlətin beynəlxalq hüquq subyektliyinin itirilməsi anlamına gəlmir. Yalnız əhalinin dağılması və cəmiyyətin parçalanması halında dövlət şəxsiyyətinin itirilməsi baş verir. Sürgün hökumətinin mövcudluğu və ya fəaliyyətinin effektivliyindən asılı olmayaraq sovetlər dönəmində Azərbaycan xalqının öz müqəddəratı uğrunda uzunmüddətli (kütləvi xalq

üsyanları ilə) mübarizəsi Azərbaycan Xalq Cümhuriyyətinin kontinuiteti üçün obyektiv əsas yaratmaqdadır.

9. Ayrı-ayrı dövlətlərin təcrübəsi üzrə beynəlxalq praktika da göstərir ki, bir neçə əsr keçməsinə rəğmən qeyri-hüquqi anneksiya hüquqi əsas yaratmır. Təcavüzə və davamlı soyqırım cinayətlərinə məruz qalan Azərbaycan xalqı isə özünün mütəmadi və çoxsaylı mübarizəsi ilə 70 il müddətində sovet rejimini qəbul etməmiş və SSRİ də, Azərbaycana münasibətdə hüquqi titul əldə edə bilməmişdir. Sovet Rusiyasının işğalına qarşı Azərbaycan Xalq Cümhuriyyətinin səlahiyyətli şəxslərinin çoxsaylı protestləri, sürgün hökumətinin fəaliyyəti, xalq üsyanları Azərbaycandakı sovet marionet hökumətlərinin legitim olmadığının sübutudur.

10. Beynəlxalq hüquqa (Quru ərazisində müharibə hüququ və adətləri üzrə 1907-ci il Haaqa Konvensiyasının Əlavəsi, m. 42 - "işğal edilən ərazinin suverenliyinin işğalçı dövlətə keçməməsi" prinsipinə, "Qanunsuz fəaliyyət hüquq yaratmır" prinsipinə görə) müasir sərhədlərin *uti possidetis juris* prinsipi ilə müəyyənləşdirməsi Azərbaycan Respublikasına münasibətdə deyil, Azərbaycan SSR-ə münasibətdə keçərlidir. Azərbaycan Xalq Cümhuriyyətinə qarşı Rusiyanın hərbi təcavüzünə qədər mövcud sərhədləri qəbul etməklə hüquq qaydası və ədalət təmin edilməlidir.

11. Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini bərpa edərkən Azərbaycan Xalq Cümhuriyyətinin kontinuitetini nəzərdə tutan varisliyinə (Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktı (m.2)) əsaslanmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin sərhədləri RSFSR-in qanunsuz anneksiyasından öncə beynəlxalq birlik tərəfindən tanınmış, Osmanlı dövləti ilə, Gürcüstanla və s. dövlətlərlə müqavilələr imzalanmışdı. Rusiya Azərbaycanın ərazisini işğal etsə də Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyi itməmiş, hərbi təcavüzdən 1991-ci ildə müstəqilliyin bərpasına kimi mühacir hökuməti fəaliyyətdə olmuşdur.

12. Azərbaycan Respublikasının hüquqi təminat altına alınan əsas dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himni Azərbaycan Xalq Cümhuriyyətinin dövlət simvolları kimi qəbul edilməsi Azərbaycan Respublikası ilə Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyinin identikliyini göstərən dövlətdaxili hüquqi vasitələrdir. Buna uyğun olaraq Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktında (m.2) ifadə edilən "varislik" " kontinuiteti" kimi oxunmağa əsas verməkdədir.

13. Azərbaycan Respublikasının 2021 – ci il 15 oktyabr tarixli Müstəqillik Günü Haqqında Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsi 1918-ci ildəki 28 maya istinadən "28 may" tarixini "müstəqillik günü", 2-ci maddədə ifadə edilən "18 oktyabrı" isə (1991-ci ildəki 18 oktyabra istinadən) "müstəqilliyin bərpası" günü kimi müəyyən edir. Qanunun bu göstərişi müasir Azərbaycan Respublikasını (Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktının 2-ci maddəsinin əksinə) AXC-nin varisi kimi deyil onun davamçısı olduğu mənasını daha konkret məzmunda təsbit etməkdədir.

14. Azərbaycan Respublikası üçün Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri onun beynəlxalq hüquq subyektliyinin identikliyinin sübutu kimi hüquqi statusunu müəyyən edir. Nəticə olaraq, Azərbaycan Respublikasının və ya Azərbaycan Xalq Cümhuriyyətinin Rusiya və SSRİ tərəfindən uzun müddətdə işğalda qalması bu dövlətin mövcudluğunun kəsilməsi anlamına gəlməməklə bərabər, Azərbaycan Xalq Cümhuriyyətinin Rusiya və SSRİ tərəfindən qanunsuz ilhaqının beynəlxalq "birlik" tərəfindən tanınıb-tanınmaması da qanunsuz ilhaqa əsas yaratmır.

15. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin davamçısı, yəni kontinuiteti konsepsiyası müasir dövlət üçün:

1) Azərbaycan dövləti ərazisində beynəlxalq hüquqa qarşı

törədilmiş çox sayda cinayətlərə: deportasiya; müharibə və soyqırım cinayətlərinə görə Rusiya Federasiyasının Azərbaycan Respublikası qarşısında reparasiya və satisfaksiya öhdəliyi üzrə iddianın qaldırılması;

2) davam etməkdə olan cinayətlər kontekstində vəzifəli şəxslərin fərdi cinayət məsuliyyətinin həlli;

3) mülkiyyətin qanunsuz expropriasiyası və konfiskasiyasına görə məsuliyyətin təmin edilməsi;

4) qanunsuz ilhaq edilmiş ərazilərin geri qaytarılması istiqamətində hüquqi əhəmiyyət kəsb edir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, ilk dəfə Azərbaycan beynəlxalq hüquq ədəbiyyatında Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyi, o cümlədən hüquq və fəaliyyət qabiliyyəti, dövlət şəxsiyyətinin xüsusiyyətləri, təcavüzə məruz qoyulmasından sonra hökumətin sürgün dövrü və onun diplomatik əlaqələri, xalqın azadlıq mübarizəsi və xalqa qarşı həmin ərazidə törədilən beynəlxalq cinayətlərin fonunda dövlətçiliyin hansı keyfiyyətdə davam etdirilməsinin qiymətləndirilməsi, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyinin Azərbaycan Respublikasında davam etdirilməsinin ideoloji, sosioloji, coğrafi-ərazi və tarixi məzmununu beynəlxalq hüquq prizmasında araşdırılır. Dövlət müstəqilliyi bərpa edilərkən Azərbaycan Respublikasının imzaladığı və qoşulduğu beynəlxalq müqavilə normaları, həmçinin daxili hüquq aktları varislik və kontinuitet konsepsiyaları baxımından dəyərləndirilir. Xüsusən də, Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji, sosioloji, coğrafi-ərazi, tarixi simvol və əlamətlərinin qeyd – şərtsiz qəbuluna baxmayaraq Azərbaycan Respublikasının bir çox aktlarında varislik konsepsiyasına istinad edilməsi tənqid edilir. Hesab edilir ki, belə bir mövqe onunla izah edilə bilər ki, ya varislik sözün geniş anlamında (kontinuitet kimi) qəbul edilmiş, ya da beynəlxalq hüquq praktikasında normativ-hüquqi tənzimetmə, eləcə də Azərbaycan beynəlxalq hüquq doktrinası da formalaşmamışdı.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya dövlətlərin milli maraqlarının müdafiəsi, o cümlədən dövlətlərin hüquq subyektliyinin suveren bərabərlik prinsipi, beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi üzrə xüsusi dərsliklərin hazırlanmasında və bu istiqamətdə tədris kursların təşkilində istifadə oluna bilər.

Tədqiqat işinin materialları, nəticə və müddəaları dövlət hakimiyyət orqanları tərəfindən Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyinin realizəsi sahəsində, müasir dövrdə dövlətin ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan – Azərbaycan Respublikasının sərhəd problemlərinin həllində, Ermənistanın Azərbaycan Respublikasına qarşı hər cür ərazi iddialarının qarşısının alınmasında, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında "dövlətlərin suveren bərabərliyi" prinsipinin faktiki məzmununun tanınması və Rusiya Federasiyası ilə əlaqələrin həyata keçirilməsində beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsinə yönəlik *jus cogens* normalarına riayət edilməsi üzrə siyasətin hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin məzmununu əhatə edən əsas müddəaları müəllifin Azərbaycanda və xaricdə nüfuzlu elmi nəşrlərdə çap olunmuş 21 məqaləsində (o cümlədən 9-u xarici ölkələrdə), habelə beynəlxalq elmi konfranslarda etdiyi 4 məruzəsində (3 konfrans materialı və 1 tezis) öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrası.

**Dissertasiyanın ümumi həcmi** 444,704 işarədən (istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla), o cümlədən "Giriş" hissəsi 28,226, I fəsil 47,618, II fəsil 34,216, III fəsil 24,636, IV fəsil 129,083, V fəsil 64,575, VI fəsil 73,386, VII fəsil 31,642 "Nəticə" hissəsi 7,845 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları nəzəri və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın strukturu haqqında məlumat verilir.

Dissertasiya işinin birinci fəsli **"Dövlətin beynəlxalq hüquq subyetliyini formalaşdıran əlamətləri"** adlanır və iki paraqrafdan ibarətdir. Bu fəsildə beynəlxalq hüquq doktrinası baxımıdan dövlətin əlamətləri təhlil edilir.

**Birinci paraqrafda** dövlətin əlamətlərinə doktrinal baxış təhlil edilir. Qeyd edilir ki, dövlət onu formalaşdıran kollektivin şəxsi kimi çıxış edir. Dövlətin şəxsiyyəti onun beynəlxalq hüquq subyektliyi ilə tam üst-üstə düşməsə də oxşarlıq təşkil edir. Dövlətin hakimiyyətdən doğan şəxsiyyəti yalnız beynəlxalq, xarici aspekt deyil, həm də daxili məzmun kəsb edir Dövlət öz şəxsiyyətini onu təsis edən toplumdan alır. Dövlət sosial differensasiya edilmiş cəmiyyət tərəfindən yaradılır, onu müdafiə edir, bu və ya digər səviyyədə onu idarə edir və onun adından çıxış edir. Dövlət törəmə şəxs olduğu üçün hərbi təcavüz zamanı hakimiyyət aparatı olaraq onu təsis edən əhalinin iradəsinə transformasiya edilir. Dövlətin mütləq əlamətlərindən biri onun mövcudluğunun maddi şərti kimi çıxış edən ərazisi və əhalisidir. Ərazi və əhalinin mövcudluğu onun beynəlxalq hüquq subyektliyinin davam etməsi üçün kifayət edir. Qeyri-qanuni anneksiya halında dövlət özünün beynəlxalq hüquq qabiliyyətini saxlayır, fəaliyyət qabiliyyətini isə itirmiş olur. Lakin insanların təşkilatı kimi dövlətin xüsusi xarakterinə görə ərazi və əhali dövlətin komponentinə çevrilir. Əhali və ərazi dövlətin komponenti kimi özünün beynəlxalq hüquq subyektliyini saxlayır. Dövlət mexanizmi dağıdılsa da bu dövləti doğuran cəmiyyətin mexanizmləri fəaliyyətini davam etdirir. Məhz bu baxımdan

müəyyən ərazidə yaşayan, özünün mədəniyyət spesifikliyi ilə fərqlənən əhalinin hakimiyyət təcrübəsi dövlətin ölməsini deyil, həmin əhalini formalaşdıran xalqın beynəlxalq hüquq subyektliyini şərtləndirir. 1933-cü il Dövlətlərin hüquq və vəzifələri üzrə Montevideo Konvensiyası dövlətin sosial varlıq olması və beynəlxalq hüquqdan asılı olmadan mövcudluğu konsepsiyasını inkişaf etdirmişdir.

**"Beynəlxalq hüquqda dövlətin əlamətləri"** adlanan ikinci paraqraf üç yarımparaqrafı özündə birləşdirir.

**Birinci yarımparaqrafda** əhalinin (xalqın) suverenliyinin davamlılığı (permanently) araşdrırlır. Qeyd edilir ki, adətən dövlətçiliyin əlamətləri kimi: dövlət marşı, gerb, bayraq, vətəndaşlıq, əhali, ali dövlət hakimiyyət orqanlarının sistemi, ərazi və s. fərqləndirilir. 1933-cü il Dövlətlərin hüquq və vəzifələri üzrə Montevideo Konvensiyasının 1-ci maddəsində dövlətin beynəlxalq hüquq subyektliyi üçün dörd elementli konsepsiya: a) daimi əhali; b) ərazi: c) hökumət; və d) beynəlxalq münasibətlərdə digər dövlətlərlə əlaqə qurmaq üçün hüquq qabiliyyəti ifadə edilib.

Dövlətin siyasi səhnədən getməsi, ölməsi üçün onun ya əhalisinin, məsələn, soyqırım cinayəti ilə yox edilməsi, ya da ərazisinin təbii-geoloji dəyişikliyə, məsələn, su altında qalması, vulkanik proseslərə məruz qalmaqla yaşayışın sürdürülməsinin mümkün olmaması halında ola bilər. Birinci halda, yəni əhalinin məhv edilməsi ilə digər element – hakimiyyət də itmiş olur. Ona görə də dövlətin əhali əlaməti siyasi iradə daşıyıcısı olmaq baxımından dövlətin davamlılığı üçün daha müəyyənedicidir. Dövlət suverenliyi formadırsa onun məzmununu xalqın suverenliyi təşkil edir. Dövlətin sosial (əhali/xalq) məzmunu onun formal-hüquqi məzmunundan öndə dayanır və sürəkliliyini də müəyyən edir. Konkret olaraq AXC-nin davamlılığını Azərbaycan Respublikasının formal-hüquqi məzmunundan, onun özünü tanıtma aktlarından da görmək olar. Azərbaycan Respublikasının 2021 – ci il 15 oktyabr tarixli Müstəqillik Günü Haqqında Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsi 28 mayı

(1918-ci ildəki 28 maya istinadən) “müstəqillik günü”, 2-ci maddədə 18 oktyabrı isə (1991-ci ildəki 18 oktyabra istinadən) “müstəqilliyin bərpası” günü kimi müəyyən edir. Qanun bu göstərişi müasir Azərbaycan Respublikasını (Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının 2-ci maddəsinin əksinə) AXC-nin varisi kimi deyil onun davamçısı olduğu mənasını təsbit etməkdədir. Eyni istiqamət Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Ali Sovetin 30 avqust 1991-ci il Bəyannaməsində də ifadə edilib. Başqa sözlə, XX əsrin əvvəllərində təsis edilən AXC özünün formasını (şəxsiyyətini) itirsə də beynəlxalq hüquq subyektliyini itirməmişdir. Qanunsuz anneksiya dövründə dövlətin suverenliyi Azərbaycan xalqında (onun elm mərkəzlərində), o cümlədən onun adından çıxış etmək haqqı qazanmış sürgün hökumətində qalmışdır. Dövlət müstəqilliyinin bərpası ilə Azərbaycan Respublikası AXC-nin malik olduğu beynəlxalq hüquq subyektliyini də əhalisi (xalqı) vasitəsilə yenidən təmin etmişdir.

**İkinci yarımparaqrafda** dövlətin suverenliyi və qanunsuz anneksiya halında beynəlxalq hüquq subyektliyi təhlil edilir. Qeyd olunur ki, Müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının preambulasında, BM Nizamnaməsində (m.1.2) xalqların (peoples) hüququndan bəhs edilir. Dövlət hakimiyyətinin mənbəsi kimi sosial qruplardan formalaşan xalq dövlət şəxsiyyətinin sosial məzmununu müəyyən edir. Dövlət şəxsiyyətinin hüquqi simvolu kimi də onun suverenliyi sıxış edir. Dolayısı ilə xalq dövlət hakimiyyətinin, onun müstəqilliyinin mənbəsi olduğu kimi, həm də daşıyıcısı olur. Dövlətin suverenliyi beynəlxalq hüquq çərçivəsində fəaliyyət göstərsə də səlahiyyətlərini beynəlxalq hüquqdan deyil, xalqdan almaqdadır. Bu səbəbdəndir ki, (milli – azadlıq mübarizəsinin təsiri də olmaqla) qanunsuz işğal dövrü bitdikdən sonra müvafiq əhali mövcud ərazi üzrə (əvvəlki hakimiyyət formasını ehtiva edən) dövlət şəxsiyyətinin bərpasını təmin edə bilir. Qanunsuz işğal halında dövlət hakimiyyətinin pozulması ilə beynəlxalq hüquq subyektliyi

itirilmir.

Beynəlxalq hüquq (məsələn, 1949-cu il Mülki əhalinin müdafiəsi üzrə Cenevrə Konvensiyası, 1907 – ci il Quru ərazisində döyüş qaydaları üzrə IV Haaqa Konvensiyasının Quru ərazisində müharibə qanunları və adətləri haqqında Qaydalar (Əlavə) m. 43 (ictimai həyata və qaydalara hörmət), m. 46 və 50 (mülki əhalinin şəxsi və mülkiyyət hüquqlarının qorunması) "işğal zamanı suverenliyin işğalçı dövlətə keçməməsi" (m.42) haqqında ümumtanınmış prinsipi ehtiva etməkdədir. Davamlılığa *(permanently)* əsaslı dövlət hakimiyyətinin bərpası konsepsiyası da bu normaya dayanmaqdadır. Başqa sözlə, qanunsuz anneksiya işğala məruz qoyulan dövlətin beynəlxalq hüquq subyektliyinin itirilməsi anlamına gəlmir. Yalnız əhalinin dağılması və cəmiyyətin parçalanması halında dövlət şəxsiyyətinin itirilməsi baş verir. Belə olan halda dövlətin beynəlxalq hüquq subyektliyinin bərpası mümkün olmur və hüquqi varislik problemi gündəmə gəlir.

**Üçüncü yarımparaqrafda** dövlətin davamlılığında ərazi (territory) suverenliyindən bəhs olunur. Qeyd edilir ki, dövlətlər suverenliyin ayrılmaz xüsusiyyəti kimi öz ərazisində ali, tam və müstəsna hakimiyyətə malikdir. Ali, tam və müstəsna hakimiyyətə malik olmaq ərazi üstünlüyündə - ali hakimiyyət (*imperium)* və suveren sahiblikdə *(dominium)* ifadə edilir. Dövlətin ərazi üstünlüyü hakimiyyətin bütün fiziki və hüquqi şəxslərə münasibət-də aliliyini və ali hakimiyyətin qanunverici, icraedici və məhkəmə orqanlarını əhatə etməsi və onlar vasitəsi ilə həyata keçirilməsini ehtiva edir.

Beynəlxalq hüquq baxımından ərazinin böyüklüyü, coğrafi yerləşməsi əhəmiyyətli deyil. Lakin suverenliyinin sərbəst formada həyata keçirilməsi üçün dövlətin ərazisinin qorunması əhəmiyyətlidir. Keçən yüzilliyin əvvəllərindən etibarən "dövlət ərazisinin bütövlüyü" *(principle of territorial integrity)* "güc tətbiq etməmək və ya güclə hədələməmək" və d. prinsiplər dövlət ərazisinin mühafizəsinə yönəldilməklə hər cür qanunsuz anneksiyanı (ilhaqı) - başqa dövlətin ərazisinin zorakı yolla zəbt

edilməsini qadağan etməkdədir. Dövlətin ərazisi başqa dövlətin təcavüzkar məqsədinin obyekti ola bilməz. Təcavüzə məruz qalmış dövlət müvəqqəti olaraq özünün faktiki ərazi hakimiyyətini, müstəqilliyini, daha doğrusu sosial anlamda şəxsiyyətini itirsə də hüquqi baxımdan onları saxlamış olur. Öncə də ifadə etdiyimiz kimi həmin ərazidəki xalq onun şəxsiyyətini davam etdirir. Dövlətin ərazisinin başqa dövlətin təcavüzkar məqsədinin obyekti ola bilməməsi ilk dəfə Millətlər Liqasının Statutunun 10-cu maddəsində, daha sonra BM Nizamnaməsində (m.2.4) təkrar təsbit edilmişdir. Millətlər Liqasının Statutunun 10-cu maddəsi dövrünün (1920) ən mütərəqqi *jus cogens* norması kimi qəbul edilməlidir.

Dissertasiya işinin ikinci fəsli "**Dövlətlərin hüquq subyektliyi**" adlanır və iki paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** dövlətin hüquq varisliyinin anlayışı, nəzəri və praktik aspektləri təhlil edilir. Qeyd edilir ki, I Dünya müharibəsindən sonra da bir neçə böyük imperiyaların, məsələn, Rusiyanın süqutu ilə Qafqazda 1918-ci ildə Gürcüstanın, Azərbaycan Xalq Cümhuriyyətinin və Ermənistanın yaradılması, 1920-ci ildə Sovet Rusiyası tərəfindən bu dövlətlərin işğalı beynəlxalq münasibətlərdə də ciddi dəyişikliklərə səbəb olmuşdur.Hüquqi varislik probleminin beynəlxalq və daxili faktorlardan asılı olması, praktikanın qeyri-müəyyən və ziddiyyətli olması səbəbindən SSRİ-nin süqutunda da bu problem özünü göstərmişdir. Belə ki, beynəlxalq hüququn subyekti kimi SSRİ-nin fəaliyyətinin dayandırılması haqqında 8 dekabr 1991-ci il Belovejski Sazişi ilə daha sonra 21 dekabr 1991-ci il Alma-Ata Bəyannaməsinin qəbulu ilə yeni yaranan dövlətlərin varisliyi və ya kontinuitet məsələsi müzakirə obyektinə çevrilmişdir. Yalnız müstəqilliyini bərpa edən dövlətlər SSRİ-nin beynəlxalq müqavilə öhdəliklərini özlərinin daxili qanunvericilik (AR dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı (m. 4)) qeyd-şərtilə yerinə yetirəcəklərini ifadə edirlər. Maraqlıdır ki, bir sıra əvvəlki, SSRİ-nin süqutuna qədər qəbul edilmiş aktlarda birbaşa varislik institutuna istinad edilir. Beynəlxalq münasibətlərdə üçüncü

dövlətlərin mövqeyi əhəmiyyətli olsa da müstəqilliyi bərpa edən dövlətin hüquq siyasəti də həlledici rola malikdir. Baltikyanı dövlətlər heç bir halda özlərini varis kimi aparmamış, dayanıqlı olaraq kontinuitet konsepsiyasını bəyan etmişlər. Üçüncü dövlətlərin mövqeyində Rusiyaya münasibətdə əsasən kontinuitet konsepsiyası ilə ifadə edilibsə digər post-sovet ölkələr üçün varislik institutuna üstünlük vermişlər. Alma-Ata Bəyannaməsinə uyğun qəbul edilən 21 dekabr 1991 – ci il MDB dövlət başçıları Şurasında RSFSR – in təşəbbüsü ilə (kurs-müəll.) qəbul edilən Qərara görə "MDB iştirakçı – dövlətləri Rusiyanın BM Təhlükəsizlik Şurasında daimi təmsilçiliyini və d. beynəlxalq təşkilatlarda SSRİ-nin davamçısı olması" (bənd 1) təklifini qəbul etmişlər.

**İkinci paraqrafda** dövlətlərin hüquq varisliyi üzrə praktika (tabula rasa, uti possidetis juris, kontinuitet) təhlil edilir. Qeyd edilir ki, beynəlxalq təcrübə sərhəd rejiminə münasibətdə dövlətlərin hüquqi varisliyi üçün *uti possidetis juris* (latınca - nəyə, necə və hansı həcmdə maliksənsə) prinsipinə əsaslanır. Bu prinsip yalnız sərhəd rejiminə deyil, dövlət borclarına münasibətdə də tətbiq edilir. Hüquqi varislik qaydasında *uti possidetis juris* prinsipinin sərhədlərə tətbiqi praktikası birmənalı olmamışdır. *Uti possidetis juris* halında da sərhəd münaqişələri istisna olmayıb. SSRİ-nin süqutu ilə Dağlıq Qarabağla bağlı Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, Krımla, Cənubi Osetiya və d. ərazilərlə bağlı Rusiyanın təcavüzü və s. aktlar qeyd edilə bilər. Baxmayaraq ki, SSRİ-nin süqutu ilə meydana gələn müqavilələrdə (məsələn, MDB-nin yaradılması haqqında 8 dekabr 1991-ci il Sazişində "birlik çərçivəsində mövcud sərhədlərin toxunulmazlığı öhdəliyi təsdiq edilməsi") *uti possidetis juris* qaydası təsbit edilmişdi. Dövlətlərin hüquq varisliyinin beynəlxalq-hüquqi nizamlanması zamanı istisna şərtləri ilə meydana çıxan sahələrdən biri də dövlətlərin insan hüquqları üzrə beynəlxalq müqavilələri təşkil edir. Müqavilələrə münasibətdə dövlətlərin varisliyi üzrə 1978-ci il Konvensiyasına (m.34.2) görə yeni yaranan dövlət beynəlxalq münasibətlərə "təmiz vərəq" *(tabula rasa)* prinsipi ilə

daxil olur. Lakin müəyyən hallarda bu prinsipdən xüsusi istisnalar da möbcuddur. Xüsusən də, insan hüquqları üzrə beynəlxalq müqavilələrin kontinuiteti "tabula rasa"nı üstələməkdədir. Dövlətlərin parçalanması, birləşməsi, yenidən yaranması insan hüquqları haqqında müqavilələrin kontiunitetinə, onların universallıq və təbii hüquq başlanğıcı konsepsiyasına xələl gətirməməlidir. Yəni sosial və ya insani "varislik" *(human "succession")* əhalinin kontinuiteti ilə beynəlxalq ümumi hüququn qaydasını təşkil etməkdədir. Bu qayda, həm də xarici təcavüzə məruz qoyulan dövlətlərin beynəlxalq hüquq subyektliyinin bərpası halı üçün keçərlidir.

Dissertasiya işinin "**Beynəlxalq münasibətlərdə dövlətin kontinuitetinin şərti**" adlanan üçüncü fəsli iki paraqrafı özündə birləşdirir.

**Birinci paraqrafda** dövlətlərin davamlılığı (*kontinuitet*) konsepsiyası araşdırılır. Qeyd edilir ki, təcavüz zamanı dövlətin şəxsiyyətinin müvəqqəti itirilməsi beynəlxalq hüquq subyektliyinin elementləri kimi suverenlik, ərazi, əhali, həmin əhalinin xalq formasında təzahür edən sosial-iqtisadi, mədəni dəyərlərini saxlamaqda davam edir. İşğal zamanı dövlətin beynəlxalq hüquq subyektliyinin saxlanılması işğal rejiminin müvəqqəti olmasından asılıdır. Kontinuitetin qəbulunu mürəkkəbləndirən problem təcavüzdən *(occupatio)* sonra ilhaqın *(annection)* mövcudluğu məsələsidir. Lakin bir çox hallarda anneksiya belə kontinuitetin qəbuluna mane olmamışdır. Kontinuitetin mövcudluğunda beynəlxalq hüquq subyektliyi üçün xüsusi element olan fəaliyyət qabiliyyətinin bərpası əhəmiyyətlidir. Dövlətin şəxsiyyəti, beynəlxalq hüquq subyektliyi və suverenliyinin nəticəsi kimi fəaliyyət qabiliyyəti ilhaq zamanı müvəqqəti itirilir. Ona görə ilhaq halında belə, xalqın (əhalinin) suverenlik xüsusiyyəti "komadan" çıxacaq dövlət üçün əsas olmalıdır. Xalqın kontinuiteti dövlətin beynəlxalq hüquq subyektliyinin identikliyini təmin edir. Hətta ilhaq qanuni olsa belə xalqın kontinuiteti itmir. Mənəvi kontinuitet üzrə olan iradə də həmin xalqın mübarizə aktları (1920-ci ildə

AXC-nin ərazisinin Rusiya tərəfindən qanunsuz ilhaq edilməsindən sonra xalqın çoxsaylı üsyanları) ilə müşahidə olunmalıdır. Beləliklə, dövlətlərin beynəlxalq hüquq subyektliyinin kontinuiteti üçün həlledici əlamət əhalinin (xalqın) mənəvi-siyasi birliyi, onun mübarizəsini də ehtiva edən "qəyyumluğu" qanunsuz ilhaqa məruz qoyulan dövlətin identikliyini, dövlətçiliyin qırılmazlığını təmin edir. Bu zaman deklarasiya edilən üçüncü mövqelər qurucu element üçün həlledici sayılmamalıdır. Montevideo Konvensiyasındakı müəyyənedici elementlərdən əhalinin (xalqın) mənəvi-siyasi birliyi beynəlxalq hüquq subyektliyinin kontinuiteti və identikliyi üçün ilkin əlamət olaraq qəbul edilməlidir. Dövlətin ərazi və hakimiyyət əlaməti də əhalinin (xalqın) beynəlxalq hüquq subyektliyindən təzahür edir.

**İkinci paraqrafda** kontinuitet və ya beynəlxalq hüquq subyektliyinin identikliyi məsələləri təhlil edilir. Qeyd edilir ki, gücün tətbiqi və ya güclə hədələmək nəticəsində törədilən ilhaq sonradan bərpa prosesində identikliyə əsas sayılmalıdır. Müəyyən müddət keçdikdən sonra xalqın ilhaq rejiminə "uyğunlaşması" da beynəlxalq hüquq baxımından prosesin qanunsuzluğunu aradan qaldırmır. Ona görə də qanunsuz anneksiya edilən ərazinin əhalisi özünün dövlətini yenidən bərpa etməklə, həm də özünün kontinuitetini təmin edir. Burada əvvəlki ilə bərpa edilən arasında *daxili özünü eyniləşdirmək* prosesi həlledici şərtdir. Dövlətin şəxsiyyəti adətən konstitusiya səviyyəsində həll edilir və dövlətin identikliyinin konstitusiya əsası onun beynəlxalq hüquq formasını da müəyyən etməlidir. Dövlət Müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktında AXC-nin varisliyinə (m. 2) istinad edilsə də Aktın ümumi məzmunundan yaranan nəticə ondan ibarətdir ki, müasir AR AXC-nin davamçısıdır, yəni ən azından kontinuitetsiz identiklik konsepsiyası diqqətə gəlir. Müvafiq dövlətin beynəlxalq hüquq subyektliyinin identikliyi üzrə konstitusiya bəyanı bütün siyasi sui-istifadələri qapatmalı, digər dövlətlər beynəlxalq hüquq subyektliyinin identikliyi üzrə konstitusiya bəyanına "dövlətlərin suveren bərabərliyi" prinsipi

kontekstində münasibət göstərməlidirlər. Yəni konstitusiya bəyanı kontinuiteti və uyğun olaraq identik dövləti müəyyən edir. Qanunsuz ilhaq zamanı uzun zamanda kontinuitetin qırılması ilə dövlət aparatında dəyişikliyin olması istisna deyil. Lakin hakimiyyətin daşıyıcısı xalq olduğu üçün əvvəlkinə bənzər (identik) oxşar dövlətin də yaradılması iradə bəyanından asılıdır. Əgər kontinuitetlə bağlı *müddətin keçməməsi məsələsində* meyarları müəyyən etməyə çalışsaq o halda:1)"sürgün hökumətinin" mövcudluğu və onun mübarizəsi;2)beynəlxalq birliyin, ayrı-ayrı dövlətlərin qanunsuz ilhaqa neqativ münasibəti; və 3) qanunsuz ilhaq edilmiş ərazinin xalqının davamlı siyasi-hərbi mövqeyi diqqətə alınmalıdır.

Dissertasiya işinin dördüncü fəsli **"Azərbaycan Xalq Cümhuriyyətinin Montevideo Konvensiya əlamətləri (ərazi, əhali) əlamətləri"** adlanır və doqquz paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** Azərbaycan toponimi və Azərbaycan dövlətləri təhlil edilir. Qeyd edilir ki, 1933-cü il Dövlətlərin hüquq və vəzifələri üzrə Montevideo Konvensiyasının 1-ci maddəsində ifadə edilən elementləri baxımından Azərbaycan Xalq Cümhuriyyəti nə anlama gəlir? Bu suala cavab vermək üçün ilk öncə "Azərbaycan" anlayışına, onun coğrafi-tarixi məzmununa müraciət etmək lazımdır. AXC-nin statusunun təsbiti onun coğrafi-tarixi məzmununa, onun ərazisi və əhalisi üçün varis kimi çıxış etmiş sələf dövlətlərə müraciət etmədən mümkün olmaz. Həm AXC-nin, həm də AR-in beynəlxalq hüquq subyektliyinin formalaşmasına təsir edən amilləri müəyyən etmək üçün elmi-tədqiqat metodu kimi xüsusi olaraq tarixi-coğrafi və sosioloji-etnik meyarlara müraciət zərurəti yaranır.

Şimalda Dərbənddən başlayaraq cənubda Həmədan və Zəncana, qərbdə İberiyadan başlayaraq şərqdə Xəzər dənizinə qədər olan ərazilər qədim dövrlərdən başlayaraq "Azərbaycan" adı ilə tanınır. IX-X əsrlərdə yaşamış məşhur tarixçi Əbu Cəfər Məhəmməd ət-Təbəri (839-923) qeyd edirdi ki, "Azərbaycan hüdudlarının başlanğıcı olaraq Əhər və Zəncan daxil olmaqla

Həmədan şəhəri, sonuc olaraq isə Xəzər Dərbəndi sanılmaqdadır".[33] Ərəb Xilafəti dövrü qaynaqlarında birmənalı olaraq göstərilir ki, ərəblərin hücumu ərəfəsində Azərbaycan ərazisi cənubda Həmədan, Əzhər və Zəncandan başlayaraq şimalda Dərbəndədək uzanırdı.[34] Məhəmməd Həsən Vəliyev (Baharlı) 1921-ci ildə yazırdı: "61 3/4° və 68 1/5° şərq və 41 5/6° və 36 1/2° şimal uzunluq dairəsi arasında, yaxud Xəzər dənizi və Urmiya gölünün qərb sahilləri arasında və Samur çayı ilə Baqraudağ arasında yerləşən ölkə ta qədimdən bəri Azərbaycan adı ilə məşhurdur". "Azərbaycan" sözü "Odlar yurdu" ("Odlar diyarı", "Od parlayan ölkə") mənasını verir.[35]Azərbaycan ərazisində ilk dövlət qurumları eramızdan əvvəl III minillikdə yaradılmışdır. Lakin bu gün mövcud olan ərazi siyasi quruluşu XIX əsrin əvvəllərində baş verən regional dəyişikliklər, Rusiyanın Azərbaycanın ərazilərini işğal etməsindən və Ermənistan dövləti yaratmasından sonra meydana gələn vəziyyətdir.

**İkinci paraqrafda** 1828-ci il Türkmənçay müqaviləsi ilə Azərbaycanda "Erməni vilayəti"nin təsisi və kütləvi köçürmələr araşdırlır. Qeyd edilir ki, 1828-ci il Türkmənçay müqavilələsinə əsasən (m.15) İranda yaşayan ermənilərin Cənubi Qafqaz ərazisinə köçürülməsinə başlanılır. Xüsusən də, "Rusiya imperatorunun 21 mart 1828-ci il tarixli fərmanı" ilə Türkmənçay müqaviləsi əsasında Rusiyaya ilhaq edilən Naxçıvan və İrəvan xanlıqlarının ləğv edilməsi və bu xanlıqların ərazisində *"Erməni vilayəti"* inzibati ərazi vahidinin yaradılması ilə ermənilər üçün müasir Ermənistan ərazi bazası əldə edilmiş oldu. 1828-ci il 26 fevral - 11 iyun tarixlərində həyata keçirilən köçürmə prosesi nəticəsində İran

---

[33] Əliyarlı S. Tariximiz açılmamış mövzuları ilə. Bakı: Mütərcim, 2012, s. 115 (560 s.); Çəmənzəminli Y.V. Tarixi, coğrafi və iqtisadi Azərbaycan. Bakı: Bakı Universiteti nəşriyyatı, 1993. – s. 13 (56 s.).
[34] Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, s. 136.
[35] Vəliyev (Baharlı) M.H. Azərbaycan, s. 3-4; Şükürov K. Azərbaycan tarixi. Üç hissədə. I hissə. Elmi-nəzəri və praktik problemləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 2004. – s. 20.

ərazisindən rəsmi rəqəmlərə görə, 8249 erməni ailəsi (ümumi sayı 40000-dən çox) Şimali Azərbaycana köçürülərək yeni yaradılan "Erməni vilayəti" (İrəvan və Naxçıvan xanlıqları ərazisi) və Qarabağ xanlığının ərazisində yerləşdirildi. Qeyri-rəsmi köçənlər bu rəqəmə daxil deyildir. Eyni zamanda, 1828-1829-cu il Rusiya-Osmanlı müharibəsinin yekunu kimi 1829-cu il sentyabrın 14-də imzalanan Ədirnə sülh müqaviləsinin 13-cü maddəsinə görə, erməni əhalisinə ümumi əfv və 18 ay müddətində öz daşınar əmlakları ilə birlikdə Rusiyaya köçmək hüququ təsbit edildi. İran və Osmanlı dövlətlərindən köçürülən ermənilərin İrəvan, Naxçıvan və Qarabağ bölgələrində yerləşdirilməsi ilə bu bölgələrin yüz illər ərzində formalaşmış Azərbaycan dövlətlərinin etnik (əhali) əlaməti süni surətdə zorla dəyişdirildi və 1917-ci ildə Rusiya imperiyasının dağılması ilə Qafqazda yeni dövlətlər yaranan zaman qalib dövlətlərin qəyyumluğunda həmin bölgələrin "sahibi" kimi "Erməni vilayəti" - Ermənistan çıxış etməyə başladı.

**Üçüncü paraqrafda** Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və mübahisəsiz olaraq tanınmış ərazisi təhlil edilir. Qeyd edilir ki, İstiqlal Bəyannaməsində Azərbaycan Xalq Cümhuriyyətinin əhatə etdiyi ərazilərin Cənubi-Şərqi Zaqafqaziyadan ibarət olduğu göstərilirdi. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı zaman bir sıra səbəblərdən dolayı XIX əsrin əvvəllərində Rusiya tərəfindən işğal edilən sahəsi 130000 $km^2$-dən çox olan tarixi Şimali Azərbaycanın torpaqlarının hamısını əhatə edə bilmədi. Belə ki, İrəvan quberniyasının böyük bir hissəsi, Tiflis quberniyasının bir qismi, həmçinin Dərbənd xanlığının ərazisi Cümhuriyyətin yurisdiksiyasından kənarda qaldı. Azərbaycan hökumətinin 1920-ci ilin "Ünvan-təqvimi"ndə açıqlanan rəsmi məlumatına görə, Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 113895,97 $km^2$ idi. Bu ərazinin 97297,67 $km^2$-i Azərbaycan Xalq Cümhuriyyətinin *mübahisəsiz ərazisi*, 16598,30 $km^2$-i isə mübahisəli ərazisi idi. Azərbaycan Xalq Cümhuriyyətinin mübahisəli əraziləri isə İrəvan və Tiflis quberniyalarının bir hissəsini əhatə edirdi. 1920-ci ilin aprel

işğalına qədər Azərbaycan Xalq Cümhuriyyətinin ümumi ərazisi 113,9 $km^2$, o cümlədən mübahisəsiz ərazisi 97,3 $km^2$, mübahisəli ərazisi 16,6 $km^2$ təşkil edirdi. Bu nəticə ona əsas yaradır ki, Azərbaycan Respublikası ilə Ermənistan arasında gələcək, ehtimal edilən sülh müqaviləsinin şərtləri Azərbaycan Xalq Cümhuriyyətinin 97,3 $km^2$ mübahisəsiz ərazisi Azərbaycan Respublikası üçün də qeyd şərtsiz tanınmalıdır. Azərbaycan Xalq Cümhuriyyətinin 97,3 $km^2$ mübahisəsiz ərazisi həmin dövlətin Versal hüquq sistemi ilə tanınması nəticəsində də qəbul edilmişdir. 1920-ci ilin 10 yanvarında hüquqi qüvvəyə minən Millətlər Liqasının Statutunun 10-cu maddəsi ilə beynəlxalq hüququn təminat altına girmişdir. 1920-ci ilin Rusiya işğalı ilə dəyişdirilən və 1991-ci il SSRİ-nin süqutu ilə meydana gətirilən Ermənistanın "ümum qəbul edilmiş" ərazi anlayışı beynəlxalq hüquq baxımından keçərli deyil.

**Dördüncü paraqrafda** Batum konfransında ərazi məsələsi və AXC-nin ərazi "güzəşti" məsələləri təhlil edilir. Qeyd edilir ki, Osmanlı dövləti ilə Cənubi Qafqaz Respublikası arasında Batum sülh konfransı 1918-ci il mayın 11-də açılır. Doğrudur ki, Azərbaycan Milli Şurası İrəvanın ermənilərə güzəştə gedilməsi və İrəvan bölgəsində erməni dövlətinin yaradılması ilə bağlı Batum konfransı çərçivəsində qəbul edilmiş qərarı "rəsmiləşdirib". Lakin burada diqqət yetirilməli olduğumuz bir neçə məqam var. Əvvəla, İrəvanın ermənilərə güzəştə gedilməsi və İrəvan bölgəsində erməni dövlətinin yaradılması ilə bağlı Batumda aparılan erməni-Azərbaycan danışıqlarında tərəflər arasında bu məsələ ilə bağlı hansısa bir müqavilə rəsmiləşdirilməsi olmayıb. Gürcü nümayəndələrinə istinadən qeyd edilir ki, sadəcə centlemen razılaşması olub. Ərazi mübadiləsi kimi məsələnin həllində centlemen razılaşması bağlanıla bilməz. İkincisi, İrəvan məsələsi ilə bağlı Batumda əldə edilən "razılaşmanı" birtərəfli qaydada təsdiq edib rəsmiləşdirən Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli iclası bu məsələdə qərar qəbul etmək üçün səlahiyyətə malik olmayıb. Belə ki, Azərbaycan Milli Şurasının 29 may 1918-

ci il tarixli iclasında Milli Şuranın 44 nəfər üzvündən cəmi 20 nəfəri iştirak edib, bu 20 nəfərdən də 16 nəfəri İrəvanın güzəştə gedilməsi təklifinin lehinə, 1 nəfəri əleyhinə səs verib, 3 nəfər isə bitərəf qalıb.[36] Ərazi güzəşti məsələsi Milli Şura üzvlərinin ən azı 2/3 səs çoxluğu ilə həll edilə bilərdi. Milli Şuranın 29 may iclasında onun üzvlərinin heç 50 faizi iştirak etmədiyindən onun qərarı hüquqi cəhətdən legitimlik daşımır. Beləliklə, Batum konfransında qəbul edilən müqavilələrlə Osmanlı dövləti ilə Cənubi Qafqaz respublikaları arasında sərhədlər təyin edilsə də, Cənubi Qafqaz respublikalarının özləri arasında sərhədlər konkret olaraq müəyyən edilmədi. Daha vacibi isə Ermənistanın təsisi üzrə Batum konfransında qəbul edilən "anlaşma" böyük ehtimalla Paris Sülh Konfransının əsas iştirakçılarının istəyi ilə gündəmə gəlmişdir. Lakin Azərbaycan parlamentində qanuni prosedurdan keçmədiyi üçün legitimliyə malik olmamışdır.

**Beşinci paraqrafda** Ermənistanın Azərbaycana qarşı iddia etdiyi ərazilər və onların etnik-dini (əhali) strukturu araşdırılır. Qeyd edilir ki, ümumiyyətlə, Cənubi Qafqaz respublikaları arasında sərhədlərin delimitasiyası və demarkasiyası üçün Ermənistanın *etnoqrafik prinsiplərə*, Azərbaycanın *etnoqrafi və coğrafilik prinsipinə*, Gürcüstan tərəfinin isə *tarixilik prinsipinə* istinad edilməsində də Azərbaycan tərəfi haqlı tərəf idi. Azərbaycan Xalq Cümhuriyyəti özündən əvvəlki dövlətlərin, o cümlədən xanlıqların əhalisi ilə qurulmuş hakimiyyət idi. Hüquq varisliyi hökumətlərin, rejimlərin dəyişilməsi halında yaranmır. Beynəlxalq hüquq baxımından dövlətin əsas elementlərindən - əhali və hakimiyyətin də dəyişilməsi hüquq varisliyi üçün hər hansı bir nəticə yaratmır. Yalnız, digər əsas elementin - ərazinin dəyişməsi hüquq varisliyi problemini yaradır. Azərbaycan Xalq Cümhuriyyətinin təsisi ilə hüquq varisliyinin obyekti olan Azərbaycan ərazisi üzrə beynəlxalq münasibətlər üçün məsuliyyət

---

[36] Протокол № 3 заседания Мусульманского Национального Совета (Тифлис: 29 мая 1918 года) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 970, siyahı № 1, iş № 1, vərəq – 51.

daşıyan yeni dövlət yaranmış oldu. Beynəlxalq hüquq varisliyi müəyyən bir ərazidə beynəlxalq münasibətlərə görə sələf dövlətlərin (...türk-müsəlman səfəvilərin, qacarların və d.) hüquq və vəzifələrinin yeni yaranan (Azərbaycan Xalq Cümhuriyyətinin) dövlətin hüquq və vəzifələri ilə fasiləli qaydada (Rusiyanın işğalından sonra) əvəzlənməsi olaraq yeni beynəlxalq hüquq subyektinin meydana gəlməsini ehtiva edir.

**Altıncı paraqrafda** Azərbaycan-Ermənistan hökumət başçılarının 1919-cu il (Tiflis) sazişi və Ermənistanın beynəlxalq öhdəliklərini pozması məsələləri təhlil edilir. Qeyd edilir ki, 1919-cu il noyabrın 23-də Tiflisdə imzalanmış Azərbaycan-Ermənistan sazişi Azərbaycanın milli, hərbi və siyasi maraqlarına ciddi zərbə vurdu. Qarabağ və Zəngəzurun türk-müsəlman əhalisi üçün gözlənilən təhlükəni daha da artırdı. Belə ki, Tiflisdə 23 noyabr sazişinin imzalanmasından dərhal sonra Azərbaycan hökuməti bu saziş üzrə Ermənistan tərəfinin öz üzərinə götürdüyü öhdəliklərə əməl edəcəyinə inanaraq öz qoşunlarını Zəngəzurdan çıxardı. Bundan sui-istifadə edən Ermənistan isə sazişin imzalanmasından sonra nəinki qoşunlarını Zəngəzurdan çıxarmadı, əksinə o bölgədəki hərbi potensialını daha da artırdı və Azərbaycan tərəfinin boşaltdığı ərazilərə qoşun yeridib qəzada qüvvələr nisbətini öz xeyrinə dəyişir.

Ermənistanın ərazi iddiası irəli sürdüyü Azərbaycan ərazilərinə silah gücünə yiyələnməyə çalışması onunla bağlı idi ki: 1. bu ərazilərin etnik tərkibi ermənilərin xeyrinə deyildi. Rusiyanın regiona erməniləri köçürməsindən sonra belə həmin ərazilərin etnik tərkibində azərbaycanlıların payı 62 faizdən yuxarı olduğu halda, ermənilərin payı cəmi 36 faiz təşkil edirdi. Ərazi iddialarını əsaslandırmaq üçün istinad edilən etnoqrafik prinsip bu ərazilərin Azərbaycana məxsusluğu faktını ortaya qoyurdu; 2. Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürdüyü bütün torpaqlar tarixi Azərbaycan torpaqları idi, birmənalı olaraq bu ərazilərin ermənilərə heç bir mənsubiyyəti və aidiyyəti yox idi. Tarixi prinsip də bu ərazilərin Azərbaycana məxsusluğunu və bu torpaqların

ermənilərlə heç bir əlaqəsinin olmadığını təsdiqləyirdi; 3. Ermənistanın ərazi iddiası irəli sürdüyü Azərbaycan ərazilərində ermənilər yaşasalar da, onlar heç bir qəzada kompakt halda deyil, türk-müsəlman əhalisinin arasında qeyri-kompakt, anklava bənzər formada səpələnmiş halda yaşayırdılar, bu anklavları da ayırıb Ermənistana birləşdirmək coğrafi cəhətdən praktiki olaraq mümkün deyildi.

**Yeddinci paraqrafda** ərazi mübahisələrinin Azərbaycan-Gürcüstan beynəlxalq hüquqi həll modeli təhlil edilir. Qeyd edilir ki, 1919-cu il iyunun 16-da imzalanan "Azərbaycan-Gürcüstan hərbi-müdafiə müqaviləsi" ilə Azərbaycan-Gürcüstan münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksəlmiş oldu. Azərbaycan-Gürcüstan müqaviləsi həmçinin, Azərbaycan Xalq Cümhuriyyəti ilə Gürcüstan Respublikası arasında normal qonşuluq münasibətlərinin yaradılmasında, tərəflər arasında mübahisə doğuran məsələlərin, o cümlədən ərazi-sərhəd məsələsinin silahlı toqquşmalara rəvac vermədən danışıqlar vasitəsilə həll edilməsində mühüm rol oynadı. İki respublika arasında ərazi-sərhəd məsələlərinin həlli istiqamətində danışıqların davam etdirilib saziş əldə olunması, əgər tərəflər arasında saziş əldə etmək mümkün olmazdısa, bu məsələnin Paris Sülh konfransının beynəlxalq arbitraj komissiyasının sərəncamına verilməsi və arbitraj komissiyasının qəbul edəcəyi qərarların qeyd-şərtsiz icra ediləcəyi barədə əldə edilən ümumi razılıq Azərbaycan Xalq Cümhuriyyəti ilə Gürcüstan Respublikası arasında ərazi-sərhəd mübahisələrinin silahlı toqquşmalara gətirib çıxarmasının qarşısını aldı. Azərbaycan və Gürcüstan respublikaları arasında formalaşan qarşılıqlı inam və etimad və məsələyə praqmatik yanaşmanın nəticəsində iki ölkə arasında qərarlaşan şərti və müvəqqəti sərhədlər 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutunadək sabit qaldı. Azərbaycan və Gürcüstan respublikaları arasında əldə edilən razılıq iki ölkə arasında ərazi-sərhəd mübahisələrinin nizama salınması ilə bağlı ən optimal beynəlxalq həll modeli idi. Lakin beynəlxalq vəziyyətin dəyişməsi və Qafqaz

respublikalarının müstəqilliyi üçün şimaldan gələn təhlükə Azərbaycan və Gürcüstan respublikaları arasında ərazi-sərhəd mübahisələrini həll edib sona çatdırmağa imkan vermədi.

**Səkkizinci paraqrafda** Cənubi Qafqaz dövlətlərinin beynəlxalq (Paris/Versal) hüquq sistemi ilə tanınmasının siyasi-hüquqi əhəmiyyəti araşdırılır. Qeyd edilir ki, 1920-ci il aprelin ortalarında Azərbaycan Parlamenti Böyük Britaniya, Fransa, İtaliya, ABŞ və s. ölkələrdə Azərbaycanın diplomatik nümayəndəliklərinin açılması haqqında qərar qəbul edir. Eyni zamanda, Azərbaycan Cümhuriyyəti hökuməti Türkiyə, İran, Gürcüstan və Ermənistan kimi qonşu ölkələrlə diplomatik əlaqələrini genişləndirdi. Beləliklə, Azərbaycan Cümhuriyyəti dünya birliyinin üzvü kimi beynəlxalq aləmdə diplomatik cəhətdən geniş şəkildə tanınma və dünya ölkələri ilə hərtərəfli əlaqələr yaratmaq istiqamətində fəaliyyətini genişləndirdi. Lakin bütün bunlara baxmayaraq, 1920-ci il aprelin 26-da Sovet Rusiyasının XI Ordusu heç bir rəsmi dəvət olmadan Azərbaycan sərhədini keçdi və dünya birliyi tərəfindən müstəqilliyi tanınan Azərbaycan Cümhuriyyətinin bütün ərazisini işğal etdi. Beləliklə, 1918-ci il mayın 28-də elan edilən AXC 23 ay sonra – 1920-ci il aprelin 27-də Rusiyanın hərbi təcavüzü nəticəsində süquta uğradı. Azərbaycan Rusiyanın işğalı altına düşdü və bu işğal 1991-ci ilə kimi davam edəcək. Belə uzun müddətə işğalın davam etməsi Azərbaycan xalqının suverenlik uğrunda mübarizəsini səngidə bilmədi. Hərbi təcavüzdən sonra Rusiyanın işğalına qarşı hərbi etirazlar Azərbaycanda olduğu qədər digər keçmiş Rusiya ərazisinə qatılan heç bir xalqda olmamışdır. Çoxsaylı üsyanlar və Sovetlərin ruslaşdırma və dinsizləşdirmə siyasəti Azərbaycan Cümhuriyyət ideologiyasını aradan qaldıra bilmədi. 1991-ci ildə AXC -nin beynəlxalq hüquq subyektliyi bütün atributları ilə Azərbaycan Respublikasının timsalında meydana gəldi.

**Doqquzuncu paraqrafda** Azərbaycan Xalq Cümhuriyyətinin digər dövlətlərlə beynəlxalq hüquqi əməkdaşlığının forma və istiqamətləri təhlil edilir. Qeyd edilir ki,

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il iyunun 4-də ilk beynəlxalq müqaviləsini Batumda Osmanlı dövləti ilə imzaladı. Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında imzalanan 1918-ci il 4 iyun tarixli Batum müqavilələri, 1918-ci il iyulun 14-də Gəncədə imzalanan Osmanlı-Azərbaycan müqavilələri, 4 iyun 1918-ci il tarixli Bakı-Batum neft kəməri ilə bağlı Azərbaycan, Gürcüstan və Osmanlı dövləti arasında imzalanan üçtərəfli saziş, Cənubi Qafqaz dəmir yol nəqliyyat vasitələrinin bölüşdürülməsi haqqında Osmanlı dövləti, Azərbaycan, Gürcüstan və Ermənistan arasında imzalanan dördtərəfli saziş, Azərbaycan Xalq Cümhuriyyəti ilə Gürcüstan Respublikası arasında imzalanan 16 iyun 1919-cu il tarixli 12 maddədən ibarət "Azərbaycan-Gürcüstan hərbi-müdafiə müqaviləsi, 1920-ci ilin yanvar ayının sonlarında Amerikanın "Yaxın Şərqə Yardım Komitəsi" ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti arasında iqtisadi müqavilə, 1920-ci ilin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə İtaliya arasında Batumda imzalanan müqavilə və sazişlər və s. AXC-nin müstəqilliyinin Paris Sülh konfransında tanınmasını da təşviq etmiş oldu. 1920-ci ilin əvvəllərindən dünyanın bir sıra dövlətləri, o cümlədən Antanta dövlətləri AXC ilə bir sıra ikitərəfli beynəlxalq müqavilə və sazişlər imzaladılar. AXC-nin ilkin tanınmasında heç şübhəsiz Osmanlı dövləti əvəzsiz rol oynadı və sonradan həm de-jure, həm də de-facto tanımalar onun Versal Konfransında tanınmasında da əhəmiyyətli oldu. AXC-nin tanınması faktı Sovet Rusiyasının qanunsuz ilhaqına qarşı da özünü göstərdi. İşğalçı dövlət istəməsə də formal rejim dəyişikliyi ilə sovet (rus) Azərbaycanını yaratmaq məcburiyyətində qaldı. Hökumət sürgünə getmək zoru ilə AXC-nin Montevideo Konvensiyasındakı hakimiyyət funksiyası müvəqqəti itirildi. Lakin AXC-nin şəxsiyyətinin davamı (kontiuniteti) əhalinin (xalqın) suverenliyində, başladılan çoxsaylı və uzunmüddətli üsyanlarla özünü göstərməyə başladı.

Dissertasiya işinin "**Azərbaycan Xalq Cümhuriyyətinə qarşı Rusiyanın hərbi təcavüzü və qanunsuz ilhaq**" adlanan beşinci fəsli dörd paraqrafı özündə birləşdirir.

**Birinci paraqrafda** işğal dönəminin beynəlxalq hüququ: 1907-ci il Haaqa qaydaları və Millətlər Liqasının Nizamnaməsi təhlil edilir. Qeyd edilir ki, Sovet Rusiyası özünün quruluşunun ilk illərindən etibarən təcavüzün qanunsuz olması ilə bağlı bir sıra aktlar qəbul etmişdi. Sovet Rusiyasının lideri V.Lenin 2(15) noyabr 1917-ci il Rusiya xalqlarının hüquq bəyannaməsi və 26 oktyabr (8 noyabr) Sülh haqqında Dekret təcavüzü və anneksiyanı birmənalı pisləməklə qalmır, təcavüzkar müharibələr bəşəriyyətə qarşı cinayət sayılır. Sülh haqqında Dekret sonradan SSRİ-nin iştirakı ilə Polşa və Baltikyanı dövlətlər də daxil olmaqla Türkiyə, İran, Əfqanıstanla Təcavüzün anlayışı haqqında London Konvensiyasını qəbul edir.

Təcavüzkar müharibələrin qanunsuzluğu artıq Haaqa konvensiyaları ilə qəbul edilmişdi. Əksəriyyət digər konvensiyalarla birlikdə 1907-ci il IV Haaqa Konvensiyasının təsis etdiyi qaydalar ümuməhatəli təcrübə kimi hüquq norması keyfiyyətində tanınmaqla beynəlxalq hüquq mənbəsi qismində beynəlxalq adət normasının ifadəsidir. Nürnberq (1945) və Tokio (1945) tribunallarının Nizamnamələri məhz Haaqa Qaydalarına əsaslanmışdı. 1920-ci il işğalı ilə Sovet Rusiyası AXC-nin inzibati ərazi quruluşunu dəyişdirməklə qalmamış, tarixən Azərbaycan Xalqına məxsus ərazilərin bir qismini mənimsəmiş, digərini isə sovet hakimiyyətinin qurdurması münasibəti ilə Ermənistana və Gürcüstana hədiyyə etmişdir. 1907-ci il IV Haaqa Konvensiyasının (m.55) deyilir ki, ... idarəetmə elə həyata keçirilməlidir ki, ...mülkiyyət növlərinin əsas dəyərləri qorunmuş olsun. Öncə də ifadə etdiyimiz kimi "işğal zamanı suverenliyin işğalçı dövlətə keçməməsi" haqqında ümumtanınmış prinsipə (m.42) uyğun olaraq təcavüzə məruz qalmış dövlətin (xalqın) siyasi, sosial, iqtisadi, hüquqi sistemi dəyişdirilə bilməz. Xüsusən də, ərazi-sərhəd dəyişikliyi haqqında söhbət belə gedə bilməz. Sovet Rusiyasının

davamçısı olan SSRİ-nin 1907-ci il IV Haaqa Konvensiyasını tanıması, həmin konvensiya normalarının adət hüquq xarakteri, pozuntunun bu gün də davam etməsi kimi faktlar təcavüz nəticəsində ərazisi bölüşdürülən AXC-nin, hazırda onun etnik, tarixi-coğrafi baxımdan hüquqi davamçısı kimi Azərbaycan Respublikasının ərazilərinin geri qaytarılması üçün Ermənistana və RF-yə qarşı iddiasına tam hüquqi əsas verməkdədir.

**İkinci paraqrafda** Rusiyanın hərbi təcavüzünə və qanunsuz anneksiyasına beynəlxalq münasibət təhlil edilir. Qeyd edilir ki, Sovet işğal rejiminə münasibətdə beynəlxalq birliyin mövqeyi siyasi faydalılıq üzrə formalaşdırılırdı. Siyasət hüquqdan üstün tutulurdu. AXC-yə münasibətdə beynəlxalq birliyin mövqeyi daha çox qeyri-hüquqi oldu. AXC-nin süqutunda erməni faktoru əhəmiyyətli olduğu üçün bir-necə dövlət istisna edilməklə sovet işğalına susmaqla reaksiya verildi. Azərbaycanın Rusiya tərəfindən işğalını Fransa və İtaliya, Böyük Britaniya və ABŞ sükutla qarşıladı. Bu dövrdə həmişə Azərbaycanı müdafiə edən Osmanlı süqut etdirildiyindən, Türkiyə parçalanmaq və suverenliyini itirmək təhlükəsi ilə üzləşdiyindən Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu önləyə bilmədi. İran da Şimali Azərbaycanda dövlətçiliyin növbəti süqutunu razılıqla qarşıladı. Ermənistan isə Azərbaycanın Rusiya tərəfindən işğal edilməsini sevinclə qarşıladı və bu işğalın həyata keçirilməsində əhəmiyyətli rol oynadı. Qonşu respublikalardan yalnız Gürcüstan Azərbaycan Xalq Cümhuriyyətinin Rusiya tərəfindən işğal edilərək devrilməsini bütün Cənubi Qafqazın işğalının başlanğıcı kimi qiymətləndirib narahatlığını bildirdi. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyəti ilə eyni siyasi-hüquqi vəziyyətdə olmuş Baltikyanı dövlətlər də etiraz notası ilə çıxış etmədilər.

Beynəlxalq hüquqa hörmət etməmək siyasətinin nəticəsi idi ki, II Dünya müharibəsi təcavüzün nəticəsi kimi meydana gəldi, soyqırım, müharibə və insanlıq əleyhinə cinayətlərlə 70 milyondan çox insanın məhvinə səbəb oldu və bu gün də ayrıca bir dövlətin

(Rusiyanın Ukraynaya təcavüzündə) siyasi prioritetlərinin hüququn önünə keçməsinin şahidi oluruq.

**Üçüncü paraqrafda** sürgündə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və diplomatik missiyalar araşdırılır. Qeyd edilir ki, 1920-ci il aprelin 27-də Azərbaycanın Rusiya tərəfindən işğal edilməsindən sonra Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Ə.Topçubaşovun rəhbərlik etdiyi Paris Sülh konfransındakı Azərbaycan nümayəndə heyəti Ə.Topçubaşovun 1934-cü ildə vəfatı ilə Azərbaycan siyasi mühacirət hökumətinin Paris qrupunun fəaliyyəti M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi İstanbuldakı Azərbaycan Milli Mərkəzinə keçir. M.Ə.Rəsuzladə 1955-ci il martın 6-da vəfat etdikdən sonra Müsavat partiyası fəaliyyətinə davam edir və müstəqilliyin bərpasında qurucu partiya kimi hökumətin yenidən təsis edilməsində iştirak edir. Qərb dövlətlərinin "milli maraqları" yalnız Azərbaycan Xalq Cümhuriyyətinin mühacirət hökumətinə münasibətdə deyil, XX əsrin 40-cı illərində işğal edilən dövlətlərin də mühacirət hökumətlərinə münasibətdə də qeyri ardıcıllığı ilə seçilirdi. İşğala məruz qalmış ölkələrin mühacir hökumətlərinin üçüncü dövlətlər tərəfindən tanınmaması onların beynəlxalq hüquq subyektliliyinin "itirilməsi" anlamına gəlmir. Sürgün hökumətinin və ya işğala məruz qalmış ölkələrin xaricdəki missiyalarının mövcudluğu həmin dövlətin (simvolu kimi) kontiunitet elementi olaraq qiymətləndirilməlidir. Sürgün hökumətinin və ya işğala məruz qalmış ölkələrin xaricdəki missiyalarının fəaliyyəti nə qədər zəif olsa da onların mövcudluğu işğalı qəbul etməmək üzrə əhalinin iradəsinin göstəricisi kimi çıxış edir, kapitulyasiya və ilhaq anlamını istisna edir. Sürgün hökumətinin mövcudluğu ərazisi işğal edilmiş dövlətin yalnız bir komponentidir. Sürgün hökumətinin mövcudluğu və ya fəaliyyətinin effektivliyindən asılı olmayaraq sovetlər dönəmində Azərbaycan Xalqının öz müqəddəratı uğrunda uzunmüddətli mübarizəsi Azərbaycan Xalq Cümhuriyyətinin kontinuiteti üçün obyektiv əsas yaratmaqdadır.

**Dördüncü paraqrafda** beynəlxalq hüquq (zaman aşımı) baxımından ASSR-in hüquqi vəziyyəti təhlil edilir. Qeyd edilir ki, 1977-ci il SSRİ Konstitusiyasına (müttəfiq – suveren sovet sosialist respublikaları SSRİ-ni təsis edirlər, m.76) və Azərbaycan SSR Konstitusiyasına (m.68) görə formal olaraq digər müttəfiq respublikalar kimi ASSR də beynəlxalq hüquq subyekti xüsusiyyətinə malik idi. Formal xarakter kəsb edən beynəlxalq hüquq subyektliyi, ASSR Konstitusiyasının 74-cü maddəsində ifadə edilən suveren səlahiyyət SSRİ Konstitusiyasının 80-cı maddəsində təsbit edilsə də əsas problem SSRİ Konstitusiyasının 81-ci maddəsində isi. Həmin maddəyə görə müttəfiq respublikaların suveren hüquqlarının SSRİ tərəfindən mühafizə edilməsi qeyd edilməklə əslində suverenlik istisna edilmişdir. Təsadüfi deyil ki, SSRİ-nin istəyinə baxmayaraq onun tərkibində olan respublikalara müstəqil beynəlxalq hüquq subyektliyinin verilməsi təklifi AXC mühadir hökumətinin də daxil olduğu "blokun" təkidi ilə beynəlxalq birlik tərəfindən rədd edilmişdi. SSRİ Konstitusiyasının 81-cı maddəsinin üstün qüvvəsi praktikada da özünü göstərmişdir. 1922-ci ildə ləğv edilən ASSR Xarici İşlər Komissarlığı yalnız 1944-cü ildə bərpa edilir, lakin onun səlahiyyətləri də ASSR Konstitusiyasında təsbit edilməmiş, fəaliyyəti SSRİ-nin xarici dövlətlərlə müəyyən edilmiş ümumi qaydalarına əsaslanırdı. Konstitusiyasının 28-ci maddəsində deyildiyi kimi ASSR öz xarici siyasət fəaliyyətində *SSRİ Konstitusiyası ilə müəyyən edilmiş* (kurs-müəll.) xarici siyasət məqsədləri, vəzifələri və prinsiplərini rəhbər tutur. Beləliklə, SSRİ konstitusiyası və ona uyğun hazırlatdırılmış Azərbaycan SSR konstitusiyası hərbi təcavüzə bəraətin "hüquqi" forması idi. Sovet rejimində Azərbaycan xalqı heç bir halda azad seçkilərlə öz müqəddəratını təyin edə bilmədi. Təcavüzə və davamlı soyqırım cinayətlərinə məruz qalan Azərbaycan xalqı isə özünün mütəmadi və çoxsaylı mübarizəsi ilə 70 il müddətində sovet rejimini qəbul etməmiş və SSRİ də Azərbaycana münasibətdə hüquqi titul əldə edə bilməmişdir. Sovet Rusiyasının işğalına qarşı AXC-nin

səlahiyyətli şəxslərinin çoxsaylı protestləri, sürgün hökumətinin fəaliyyəti, xalq üsyanları Azərbaycandakı sovet marionet hökumətlərinin legitim olmadığının sübutudur.

Dissertasiya işinin "**Rusiyanın hərbi təcavüzü və qanusuz sovet ilhaqına qarşı milli azadlıq mübarizəsi Azərbaycan xalqının hakimiyyətinin kontinuiteti kimi**" adlanan altıncı fəsli dörd paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** Rusiyanın hərbi təcavüzünə və sovet hakimiyyətinə qarşı milli azadlıq üsyanları araşdırılır. Qeyd edilir ki, xalqın siyasi müstəqillik ideyaları yaşadıqca işğal rejiminin qəbulu üçün zaman aşımı olmur (J.Brounli). Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının preambulasında deyilir ki, ...1920-ci il aprelin 27-28-də RSFSR beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, müharibə elan etmədən öz silahlı qüvvələrinin hissələrini Azərbaycana yeritdi, suveren Azərbaycan Respublikasının ərazisini işğal etdi, qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devirdi..., bütün bunlara baxmayaraq Azərbaycan xalqı dövlət müstəqilliyi uğrunda mübarizəni davam etdirirdi.

Sovet hakimiyyətinə qarşı ilk böyük ümumxalq üsyanları 1920-ci il 25-31 may tarixindən başlayaraq Gəncədə, Şuşa ilə yanaşı Qarabağın Bərdə, Ağdam, Tərtər, Cəbrayıl, Zəngəzur və Naxçıvan, Zaqatala, Quba qəzasının Dəvəçi və Qusar rayonlarında, Şəmkirdə, Qazaxda, Nuxada, Muğanda və digər bölgələrdə sovet hakimiyyətinə qarşı üsyanlar baş verir. Azərbaycanda antisovet hərəkatlar nəticəsində vəziyyət çox kəskinləşdiyi üçün 72 minlik XI Ordunun Azərbaycanda olmasına baxmayaraq, Rusiyanın bura daha 7 diviziya göndərmək barədə qərarı sovet hakimiyyətinə qarşı bütün ölkəni əhatə edən üsyanların və müqavimət hərəkatlarının miqyasının hansı dərəcədə olduğunu göstərirdi. Azərbaycanda baş verən bütün antisovet üsyanlar qan içində boğulsa da, bu üsyanlar sonrakı illərdə də davam etdi. 1920-ci ilin aprel işğalından sonrakı 1924-cü illər ərzində Azərbaycanda sovet işğal rejiminə qarşı ümumilikdə 54 silahlı üsyan baş verdi. Sonrakı illərdə sovet işğal

rejiminə qarşı müqavimət hərəkatının qaçaqçılıq, sabotaj və digər formaları da sınaqdan keçirildi. AXC-nin bütün ərazisini əhatə etmiş bu üsyanlar Azərbaycan xalqının ölkənin Rusiya tərəfindən işğalı ilə barışmadığının və istiqlaliyyətinin bərpası uğrunda mübarizəsinin sübutudur.

**İkinci paraqrafda** AXC-nin davamlılığını - ideologiyasını qaldırmaq üçün milli-mənəvi dəyərlərin, əlifbanın dəyişdirilməsi, deportasiya və d. soyqırım cinayətləri təhlil edilir. Qeyd edilir ki, işğal rejiminin uzun müddətli olması halında zaman aşımı ilə dövlətin kontinuiteti şübhə altına ala bilər. Lakin qanunsuz anneksiya kütləvi xarakter kəsb edən cinayətlərlə, o cümlədən insanlıq əleyhinə, soyqırım cinayətləri ilə müşayiət edilirsə, bu halda zaman aşımının tətbiqi mümkün deyil. 1920-ci ilin aprelindən 1921-ci ilin avqustuna qədər Azərbaycanda 48 min insan, Müsavat partiyasının tərəfdarları "qırmızı bolşevik terrorunun" qurbanı oldu. Yalnız 1937-1938-ci illərdə həyata keçirilmiş kütləvi repressiyalar zamanı Azərbaycanda 40 minə yaxın azərbaycanlı cinayət məsuliyyətinə cəlb edilmiş, onlardan 30 mindən çoxu güllələnməyə, uzun müddətə həbsə və sürgünə məhkum edildi. 1907-ci il Haaqa Konvensiyasına görə işğal edilmiş ərazinin əhalisi ayrılmaz hüquqlara malikdirlər (m.42-47 ). 1949-cu il Cenevrə konvensiyalarında bu hüquq daha da inkişaf etdirilib. 1949-cu il Hərbi münaqişə zamanı mülki əhalinin müdafiəsi üzrə IV Cenevrə konvensiyasının 49-cu maddəsinə görə səbəblərindən asılı olmayaraq himayədə olan şəxslərin işğal edilmiş ərazidən ...hər hansı bir əraziyə fərdi və ya kütləvi surətdə qovulması... qadağandır. 1948-1953-cü illərdə 100 mindən çox azərbaycanlı Ermənistandan Azərbaycana deportasiya edildi. Bu proses sonrakı illərdə də davam etdirildi. 1949-cu il Hərbi münaqişə zamanı mülki əhalinin müdafiəsi üzrə IV Cenevrə konvensiyasının 49-cu maddəsinə görə işğalçı dövlət öz mülki əhalisinin bir hissəsini işğal etdiyi əraziyə də köçürə bilməz. Azərbaycanlılardan boşaldılan yerlərə kütləvi surətdə xaricdən köçürülən ermənilər yerləşdirilməyə başlanır. Bunlar 1949-cu il Cenevrə

Konvensiyalarının pozuntusu olaraq müharibə cinayətləridir. Azərbaycan xalqına qarşı cinayətlər sonrakı illərdə də davam edib. 1988-1991-ci illərdə azərbaycanlıların Ermənistan SSR-dəki tarixi etnik torpaqlarından sonuncu deportasiyası həyata keçirildi. Azərbaycan əhalisinə qarşı 1907-ci il Haaqa Konvensiyası, 1949-cu il Cenevrə konvensiyaları, 1948-ci il Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması üzrə Konvensiya sistematik şəkildə pozulmuşdur. Azərbaycan əhalisinə qarşı törətdiyi beynəlxalq cinayətlərə görə imperialist Rusiya-sovet dövlətinə münasibətdə mühakimə təmin edilməlidir.

**Üçüncü paraqrafda** Azərbaycan Xalq Cümhuriyyətinin işğal edilmiş ərazilərinin Rusiya tərəfindən Ermənistana verilməsi məsələləri araşdırılır. Qeyd edilir ki, Azərbaycan Rusiya tərəfindən işğal edilərək sovetləşdiriləndən sonra onun ərazilərindən “donor” kimi istifadə edilir. AK(b)P MK-nın 1920-ci il 30 noyabr tarixli qərarı və N.Nərimanovun 1 dekabr tarixli bəyanatı ilə Zəngəzur və Naxçıvan qəzalarının ərazisinin Sovet Ermənistanına verilməsi elan edilsə də, Türkiyənin Rusiya qarşısında göstərdiyi dirənişi və əzmkarlığı sayəsində Moskva hökumətinin Naxçıvanı Ermənistana vermək planının reallaşmasının qarşısı alınır. Naxçıvan məsələsinin bu cür ədalətli şəkildə öz həllini tapması Türkiyə diplomatiyasının həmişə olduğu kimi Azərbaycan xalqı qarşısında əvəzedilməz xidməti kimi qiymətləndirilməlidir. Rusiyanın vasitəçiliyi ilə Türkiyə ilə Azərbaycan, Gürcüstan və Ermənistan arasında keçirilən Qars konfransı (26 sentyabr-13 oktyabr 1921) Moskva konfransının Naxçıvanla bağlı müddəasını təsdiq edir. Lakin sonrakı illərdə Naxçıvanla Azərbaycanın fiziki ayrılması həyata keçirilir. Azərbaycan SSR Ali Sovetinin 7 may 1969-cu il tarixli fərmanı ilə Nüvədi, Eynəzir və Tuğut kəndlərinin Ermənistan verilməsi təsdiq edildi və onların adı Zəngilan rayonun tərkibindən çıxarıldı. Beləliklə, Nüvədi, Ernəzir və Tuğut kəndləri Ermənistan SSR-in tərkibində yaradılan Mehri rayonunun inzibati idarəsinə verildi. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında,

geniş anlamda isə bütövlükdə Türk Dünyası arasında birbaşa əlaqə kəsildi.

Rusiyanın Azərbaycana qarşı sərgilədiyi ən təcavüzkar faktlardan biri də o idi ki, bu danışıqlarda Gürcüstanı gürcülər, Ermənistanı isə ermənilər təmsil etdikləri halda, Azərbaycan tərəfini ya Rusiya təmsil edir, ya da Azərbaycan nümayəndə heyətinin tərkibi gürcü və ermənilərdən ibarət olurdu. Buna görə də 1920-ci ilin aprel işğalından sonra Rusiya ilə Ermənistan, o cümlədən də Rusiya ilə Gürcüstan arasında imzalanmış müqavilə və sazişlərlə və RK(b)P MK Qafqaz Bürosunun qərarları ilə bu respublikalara verilmiş Azərbaycan əraziləri beynəlxalq hüquqi cəhətdən qanunsuz anneksiyadır.

**Dördüncü paraqrafda** SSRİ  və onun davamçısı Rusiya Federasiyasının hərbi qüvvələri ilə Azərbaycan ərazilərinin növbəti işğal mərhələsi təhlil edilir. Qeyd edilir ki, 1988-ci il noyabrında Moskvanın ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirmək tələbinə qarşı Noyabrın 19-da Azadlıq meydanında keçirilən mitinqdə Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağı qaldırılır. 1990-cı ilin 20 yanvar hərbi cinayətindən sonra xalq hərəkatı daha da dərinləşdi və bu hərəkat Azərbaycanın müstəqilliyinin *bərpa edilməsi* ilə nəticələnən 1991-ci il 30 avqust tarixli Bəyannamə və 18 oktyabr tarixli Konstitusiya Aktının qəbuluna gətirib çıxarır. Xocalı soyqırımının törədilməsindən az sonra, Laçın və d. rayonlar Rusiya tərəfindən hərbi, texniki və digər cəhətlərdən hərtərəfli dəstək alan Ermənistan tərəfindən işğal edilməsinə qarşı Azərbaycanın istəyilə BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri qəbul edilsə də qətnamələrini tələblərini Ermənistan yerinə yetirmədi.

Ermənistanın növbəti hərbi təcavüz cəhdinə cavab olaraq Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də başladığı əks-həmlə əməliyyatına başladı və 2020-ci il noyabrın 10-dək 44 gün davam edən Vətən müharibəsi nəticəsində Ermənistan ordusunu məhv etdi və işğal altında olan ərazilərimizi azad etdi. Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin

rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu tərəfindən icra edilmiş “Dəmir Yumruq” əməliyyatı Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazıldı, işğalçılığı dövlət siyasətinə çevirən Ermənistanın təslim olması ilə nəticələndi. 2020-ci il noyabrın 10-da “Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Üçtərəfli Bəyanatı” ilə Ağdam, Kəlbəcər və Laçın rayonları şəhid vermədən azad edildi. 2020-ci il noyabrın 10-da “Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı (bənd 9) ilə ”Zəngəzur dəhlizinin yaradılması” tarixi zərurətə çevrildi. Azərbaycan torpaqlarında yüz minlərlə minalar, partlayıcı maddələr basdırılıb. Ermənistan dövlətinin beynəlxalq hüquqi məsuliyyətə gətirilməsi təmin edilməlidir. Ermənistan dövlətinin adından çıxış etmiş ayrı-ayrı vəzifəli şəxslərin münaqişə dövründə Azərbaycana qarşı törətdiyi çoxsaylı müharibə cinayətlərinə, kütləvi qırğın və soyqırımı aktlarına görə fərdi cinayət məsuliyyəti ilə əlaqəli cinayət işləri başladılmışdır. Azərbaycana vurduğu böyük sosial-iqtisadi zərərə görə Ermənistanın reparasiya öhdəliyi istiqamətində tədbirlər davam etdirilməlidir. Həm 1907-ci il Haaqa Konvensiya Qaydalarına, həm də sonrakı beynəlxalq hüquqa (Cenevrə hüququna) görə Azərbaycana qarşı törədilən çoxsaylı müharibə cinayətlərinə, soyqırımı aktlarına görə Rusiya tərəfi də Ermənistan qədər məsuliyyətlidir.

Dissertasiya işinin yeddinci fəsli “**Azərbaycan Xalq Cümhuriyyətinin kontinuitetini əsaslandıran Azərbaycan Respublikasının dövlətdaxili qanunvericiliyi**” adlanır və üç paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** AXC kontinuitetinin nəticəsi kimi Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyinin bərpasının konstitusiya əsasları təhlil edilir. Qeyd edilir ki, Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktında birbaşa varisliyə istinad edilsə də Aktın ümumi məzmunundan kontinuitetsiz identiklik konsepsiyası

diqqətə gəlir. Xüsusən də, Aktın 1-ci və 3-cü maddəsi identiklik üçün tam əsas yaratmaqdadır. Aktın preambulasında deyilir ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin BMT Nizamnaməsində,...və BMT tərəfindən tanınmasına ümid bəsləyərək... AR-in dövlət müstəqilliyinin bərpa olunduğunu elan edir. Burada söhbət "AR-in dövlət müstəqilliyinin tanınması"ndan deyil, müstəqilliyin bərpasının tanınmasından getməlidir. Preambulanın son cümləsinə uyğun olaraq AR XİN də digər dövlətlərlə diplomatik əlaqələrin "qurulmasına" deyil, "yenidən qurulmasına" istinad etməlidir. Eyni zamanda bu nəticə Konstitusiya Aktının adında da nəzərə alınmalı, Aktın adı – "AR-in Dövlət Müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı" kimi oxunmalıdır. Aktda (m.2) ifadə edilən – "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir" fikri "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Demokratik Respublikasının davamçısıdır" kimi anlaşılmalıdır. Konstitusiyaların preambulası beynəlxalq müqavilələrin preambulası qədər əhəmiyyətli olduğu üçün hesab edirik ki, bu məzmun Azərbaycan Respublikası Konstitusiyasının Preambulasında ..."AR-in dövlət müstəqilliyi haqqında" Aktda əks olunan prinsipləri və *AR AXC-nin davamçısı olduğunu* əsas götürərək..." kimi yeni redaksiya dəyişikliyində verilə bilər. Kontinuitetlilik, identiklik konsepsiyası: 1) Azərbaycan dövləti ərazisində beynəlxalq hüquqa qarşı törədilmiş çox sayda cinayətlərə: deportasiya; müharibə və soyqırım cinayətlərinə görə Rusiya Federasiyasının Azərbaycan Respublikası qarşısında reparasiya və satisfaksiya öhdəliyi üzrə iddianın qaldırılması; 2) davam etməkdə olan cinayətlərə görə vəzifəli şəxslərin fərdi cinayət məsuliyyətinin həlli; 3) mülkiyyətin qanunsuz expropriasiyası və konfiskasiyasına görə məsuliyyətin təmin edilməsi; 4) qanunsuz ilhaq edilmiş ərazilərin geri qaytarılması istiqamətində hüquqi əhəmiyyət kəsb edir.

**İkinci paraqrafda** Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Respublikasının dövlət simvolları: kontinuitetə əsas verən identiklik məsələləri təhlil edilir. Qeyd edilir ki, özünə münasibətin göstəricisi olan statusdan hüquq yaranır. Əhalinin (xalqın) 1991-ci il 30 avqust tarixli Müstəqillik Bəyannaməsi və 18 oktyabr tarixli Konstitusiya Aktı onun bərpa edilən dövlətinin əvvəlkinin beynəlxalq hüquq subyektliyinin kontinuitetinə və identikliyinə istinad edir. Əsas dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Dövlət gerbi və Dövlət himnidir (AR Konstitusiyası m.23.I). Azərbaycan Respublikasının Dövlət bayrağı və digər atributları özünün bütün əlamətləri ilə AXC-nin təsisatıdır. Azərbaycan Respublikasının hüquqi təminat altına alınan əsas dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himni Azərbaycan Xalq Cümhuriyyətinin dövlət simvolları kimi qəbul edilməsi Azərbaycan Respublikası ilə Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyinin identikliyini göstərən dövlətdaxili hüquqi vasitələrdir. Buna uyğun olaraq Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktında (m.2) ifadə edilən "varislik" "kontinuitet" kimi oxunmağa əsas verməkdədir. Azərbaycan Respublikası üçün AXC-nin dövlət rəmzləri onun beynəlxalq hüquq subyektliyinin identikliyinin sübutu kimi hüquqi statusunu müəyyən edir. Qanunsuz fəaliyyət hüquq yaratmır (H.Kelzen). Azərbaycan Respublikasının və ya AXC-nin Rusiya və SSRİ tərəfindən uzun müddətdə işğalda qalması bu dövlətin mövcudluğunun kəsilməsi anlamına gəlməməklə bərabər, Azərbaycan Xalq Cümhuriyyətinin Rusiya və SSRİ tərəfindən qanunsuz ilhaqının beynəlxalq "birlik" tərəfindən tanınıb-tanınmaması da qanunsuz ilhaqa əsas yaratmır.

**Üçüncü paraqrafda** Azərbaycan Respublikasının ərazisi (Azərbaycan Xalq Cümhuriyyəti timsalında *uti possidetis juris*) müəyyən edilir. Qeyd edilir ki, Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı müasir Azərbaycan Respublikasının timsalında yalnız AXC-nin dövlət müstəqilliyinin bərpasını deyil, həm də

1920-ci ildə dövlətçiliyin itirilmə səbəblərini, xarici hərbi təcavüzə uğradığını göstərməklə dövlətin davamlılığını əsaslandırmaq məqsədi daşıyır. Bu mənada *uti possidetis juris* prinsipi qanunsuz ilhaq dövründə heç bir hüquqi əsas olmadan bölüşdürülən AXC-nin əraziləri "müttəfiq" kimi tanınan ASSR üçün qəbul edilməlidir. Beynəlxalq hüquqa (1907-ci il Haaqa Konvensiyasının Əlavəsi, m. 42 - "işğal edilən ərazinin suverenliyinin işğalçı dövlətə keçməməsi" prinsipinə görə) sərhədlərin *uti possidetis juris* prinsipi ilə müəyyənləşdirməsi Azərbaycan Respublikasına münasibətdə deyil, ASSR-ə münasibətdə keçərlidir. Azərbaycan Respublikasının bu gün faktiki suverenliyində olan 86.6 min $km^2$ ərazisi hərbi işğalın nəticəsidir. Azərbaycan hökumətinin 1920-ci ilin "Ünvan-təqvimi"ndə açıqlanan rəsmi məlumatına görə, AXC-nin 113895,97 $km^2$ ərazisinin 97297,67 $km^2$-i onun *mübahisəsiz ərazisi* idi. Yalnız 16598,30 $km^2$ ərazisi mübahisəli idi.Azərbaycan Respublikası ilə Ermənistan arasında bağlanmalı olan ərazi-sərhəd (sülh) müqavilə şərtləri AXC-nin 97,3 $km^2$ mübahisəsiz ərazisi Azərbaycan Respublikası üçün də qeyd şərtsiz tanınmalıdır. Azərbaycan Xalq Cümhuriyyətinin 97,3 $km^2$ mübahisəsiz ərazisi Versal konfransında da bəyan edilmiş, RSFSR-in qanunsuz anneksiyasından öncə AXC-nin sərhədləri həmsərhəd Osmanlı dövləti ilə, Gürcüstanla, İranla, Dağlılar Respublikası ilə imzalanmış müqavilələrlə tanınmış, 1907-ci il Haaqa Konvensiyasının, 1920-ci ilin 10 yanvarında hüquqi qüvvəyə minən Millətlər Liqasının Statutunun (m.10) təminatında olub. 1920-ci ilin Rusiya işğalı ilə dəyişdirilən və 1991-ci il SSRİ-nin süqutu ilə meydana gətirilən Ermənistanın "ümum qəbul edilmiş" ərazi anlayışı beynəlxalq hüquq baxımından keçərli deyil. Azərbaycan Respublikası tərəfindən Ermənistan üçün ərazi-sərhəd tanınması yalnız Azərbaycan Xalqının ümumxalq səsverməsi nəticəsində mümkün ola bilər.

**Dissertasiyanın nəticə hissəsində** əldə edilmiş mühüm təklif və nəticələr 9 bənddə müəyyən edilmişdir:

1. XX əsrin əvvəllərində təsis edilən AXC özünün formasını (şəxsiyyətini) itirsə də beynəlxalq hüquq subyektliyini itirməmişdir. Qanunsuz anneksiya dövründə dövlətin suverenliyi Azərbaycan xalqında (onun elm mərkəzlərində), o cümlədən onun adından çıxış etmək haqqı qazanmış sürgün hökumətində qalmışdır. Dövlət müstəqilliyinin bərpası ilə Azərbaycan Respublikası AXC-nin malik olduğu beynəlxalq hüquq subyektliyini də əhalisi (xalqı) vasitəsilə yenidən təmin etmişdir.

2. İşğal dönəminin hüququ müasir beynəlxalq təhlükəsizlik hüququ üçün də təməl normalar yaratmaqla Azərbaycan Respublikasının qanunsuz ilhaq edilmiş ərazilərinin geri qaytarılmasına ciddi təminatlar saxlamaqdadır. Xüsusən də, Sovet Rusiyasının davamçısı olan SSRİ-nin 1907-ci il IV Haaqa Konvensiyasını tanıması, həmin konvensiya normalarının adət hüquq xarakteri, pozuntunun bu gün də davam etməsi kimi faktlar təcavüz nəticəsində ərazisi bölüşdürülən AXC-nin, hazırda onun hüquqi davamçısı kimi etnik, tarixi-coğrafi meyarlardan çıxış etməklə Azərbaycan Respublikasının ərazilərinin geri qaytarılması üçün Ermənistana və RF-yə qarşı iddiasına tam hüquqi əsas verməkdədir.

3. Azərbaycan əhalisinə qarşı 1907-ci il Haaqa Konvensiyası, 1949-cu il Cenevrə konvensiyaları, 1948-ci il Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması üzrə Konvensiya sistematik şəkildə pozulmuşdur. Bu həmin normalardır ki, II Dünya müharibəsi sonunda Nürenberq hərbi tribunalında faşist Almaniyasının liderləri onların pozuntusuna görə mühakimə edilmişlər. Faşist Almaniyasının beynəlxalq hüququ məsuliyyəti çərçivəsində onun vurulan zərərə görə reparasiya öhdəliyi təmin edilmiş, dövlətin isə ərazisi və hakimiyyətinin "demontajı" həyata keçirilmişdir. 1907-ci il Haaqa Konvensiyası və 1949-cu il Cenevrə konvensiyalarına görə zərər vuran dövlət üçün reparasiya öhdəliyi təsbit edilib. Hesab edirik ki, Azərbaycan əhalisinə qarşı törətdiyi beynəlxalq cinayətlərə görə imperialist Rusiya-sovet hakimiyyətinə münasibətdə də mühakimə həyata keçirililməlidir.

4. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktında Azərbaycan Respublikasının identikliyi Baltikyanı dövlətlərdə olduğu kimi terminoloji baxımdan qeyri-müəyyənliyə malikdir. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktında (Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir, m. 2;) birbaşa varisliyə istinad edilsə də Aktın ümumi məzmunundan yaranan nəticə ondan ibarətdir ki, müasir Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin davamçısıdır, yəni ən azından kontinuitetsiz identiklik konsepsiyası diqqətə gəlir. Xüsusən də, Konstitusiya Aktının 1-ci maddəsində ifadə edilən " 1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Demokratik Respublikasını devirməsi Rusiyanın *müstəqil Azərbaycanı işğal etməsi* (kurs-müəll.) hesab edilsin" fikri, həmçinin "SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilənin Azərbaycana aid hissəsi imzalandığı andan etibarsız..." hesab edilməsi üzrə 3-cü maddəsi identiklik üçün tam əsas yaratmaqdadır.

5. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktının preambulasında da birbaşa Azərbaycan Xalq Cümhuriyyətinin bəyanı üçün əsas olmuş Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə istinad edilir. Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsindəki ... Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə (oxunmalıdır kontinuitetinə-müəll.) əsaslanaraq... dövlət əsaslarının yenidən bərpasını təmin etmişdir.

6. Qeyri-müəyyənlikdən biri də yenə də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktının preambulasındadır. Qeyd edilir ki,

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarında təsbit edilmiş prinsiplərə müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək... Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu elan etməklə "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin tanınması"ndan deyil, müstəqilliyin bərpasının tanınmasından gedir. Preambulanın son cümləsinə uyğun olaraq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi də digər dövlətlərlə diplomatik əlaqələrin "qurulmasına" deyil, "yenidən qurulmasına" istinad etməlidir. Eyni zamanda bu nəticə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktının adında da nəzərə alınmalı, yenə həmin il 30 avqust tarixli Azərbaycan Respublikası Ali Sovetinin "Dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannaməsi"ndə olduğu kimi Konstitusiya Aktının adı – "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpası haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktı" kimi oxunmalıdır.

7. Azərbaycan Respublikasının qanunvericiliyində birbaşa kontinuitet institutuna istinad edilməməsini beynəlxalq hüquq üzrə kadr çatışmazlığı problemi ilə əlaqələndirmək olar. Məlum olduğu kimi Azərbaycan Respublikasında "beynəlxalq münasibətlər və beynəlxalq hüquq" ixtisası üzrə kadr hazırlığına yalnız dövlət müstəqilliyinin bərpasından sonra, 1991-ci ildən başlanılmışdır. SSRİ dövründə isə "beynəlxalq münasibətlər və beynəlxalq hüquq" ixtisası üzrə kadr hazırlığına azərbaycanlılar ya buraxılmamış, ya da xüsusi istisnalarla buraxılmışlar. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktında (m.2) ifadə edilən – "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir" fikri "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş

Azərbaycan Demokratik Respublikasının davamçısıdır" kimi anlaşılmalıdır. Konstitusiyaların preambulası beynəlxalq müqavilələrin preambulası qədər əhəmiyyətli olduğu üçün hesab edirik ki, bu məzmun Azərbaycan Respublikası Konstitusiyasının Preambulasında ..."Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri və *Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin davamçısı olduğunu* əsas götürərək..." kimi yeni redaksiya dəyişikliyində verilə bilər.

8. Birləşmiş Millətlər Təşkilatı səviyyəsində razılığa da əsas kimi görünən MDB-nin yaradılması haqqında 8 dekabr 1991-ci il Sazişi ("razılığa gələn yüksək tərəflərin birlik çərçivəsində mövcud sərhədlərin toxunulmazlığı və bir-birinin ərazi bütövlüyünün tanınması və hörmət edilməsi" (m.5) öhdəliyi də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktına (m.2) zidd olması səbəbindən hərbi təcavüzdən sonrakı müddətdə meydana gətirilən ərazi dəyişikliyinin tanınmasına əsas kimi qəbul edilə bilməz.

9. Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini bərpa edərkən Azərbaycan Xalq Cümhuriyyətinin kontinuitetini nəzərdə tutan varisliyinə (Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktı (m.2)) əsaslanması ərazi hüdudlarını da ehtiva etməkdədir. Azərbaycan Respublikasının bu gün faktiki suverenliyində olan 86.6 min $km^2$- ərazisi hərbi təcavüzün nəticəsidir. Azərbaycan hökumətinin 1920-ci ilin "Ünvan-təqvimi"ndə açıqlanan rəsmi məlumatına görə, Azərbaycan Xalq Cümhuriyyətinin 113895,97 $km^2$ ərazisinin 97297,67 $km^2$-i onun *mübahisəsiz ərazisi* idi. Yalnız 16598,30 $km^2$ ərazisi mübahisəli idi. Azərbaycan Respublikası ilə Ermənistan arasında ərazi-sərhəd (sülh) müqavilə şərtləri Azərbaycan Xalq Cümhuriyyətinin 97,3 $km^2$ mübahisəsiz ərazisi Azərbaycan Respublikası üçün də qeyd şərtsiz tanınmalıdır. Azərbaycan Xalq Cümhuriyyətinin 97,3 $km^2$ mübahisəsiz ərazisi həmin dövlətin Versal konfransında da bəyan edilmiş, RSFSR-in

qanunsuz anneksiyasından öncə Azərbaycan Xalq Cümhuriyyətinin sərhədləri "proje dövlət" Ermənistan istisna olmaqla həmsərhəd Osmanlı dövləti ilə, Gürcüstanla, İranla, Dağlılar Respublikası ilə imzalanmış müqavilələrlə tanınmış, 1920-ci ilin 10 yanvarında hüquqi qüvvəyə minən Millətlər Liqasının Statutunun (m.10), Quru ərazisində müharibə hüququ və adətləri üzrə 1907-ci il Haaqa Konvensiyasının təminat altına girmişdir. 1920-ci ilin Rusiya işğalı ilə dəyişdirilən və 1991-ci il SSRİ-nin süqutu ilə meydana gətirilən Ermənistanın "ümum qəbul edilmiş" ərazi anlayışı beynəlxalq hüquq baxımından keçərli deyil. Azərbaycan Respublikası tərəfindən Ermənistan üçün ərazi-sərhəd tanınması yalnız Azərbaycan Xalqının ümumxalq səsverməsi nəticəsində mümkün ola bilər. Azərbaycan Xalq Cümhuriyyətinə qarşı Rusiyanın hərbi təcavüzünə qədər mövcud sərhədləri qəbul etməklə (*restitutio integrum*) beynəlxalq hüquq qaydası təmin edilməlidir.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Dövlətlərin varisliyi anlayışı, nəzəriyyələri və hüquqi əsasları // - Bakı: Azərbaycan hüquq jurnal, - 2021. №3, - s. 134-145

2. Dövlətin hüquq varisliyi: nəzəri və praktiki aspektlər // - Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, - 2021. №4 (76) - s. 229-238

3.Azərbaycanda mülkiyyət hüququnun konstitusyon təminatlandırılması // - Bakı: Azərbaycan Hüquq Jurnalı, - 2021. № 3, - s. 36-47

4. Dövlətlərin hüquq varisliyi üzrə praktika (tabula rasa, uti possidetis juris, kontinuitet) // - Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, - 2021. №4 (76), - s. 255-265

5. Perspectives for Cooperation in tehe Field of Human Rights between the UN Human Rights Committee and the Republic

of Azerbaijan // XX century, new calls and modern development trends of law, İnternational Conference, - Baku: - 2021, - s. 21-22

6. Economic rights and their legislative basis. (continuity, domestic and international instruments).Constitutional principles of restriction of economic rights andfreedoms // Евразийский юридический журнал.(Московский государственный юридический университет имени О.Е. Кутафина), - Moskva: - 2022. № 5 (168), - с. 24-28

7. Dövlətin beynəlxalq hüquq subyektliyini formalaşdıran əlamətlər // - Bakı: Nəqliyyat hüququ, elmi nəzəri, təcrübi jurnal, - 2022. № 2, - с. 180-191

8. Dövlətin suverenliyi və qanunsuz anneksiya halında beynəlxalq hüquq subuektliyi // - Bakı: Polis akademiyasının elmi xəbərlər, - 2022. № 2 (34), - s. 73-78

9. Kontinuitet və ya beynəlxalq hüquq subyektliyinin identikliyi // - Ankara: - Türk Dünyası Araştırmaları dergisi, - 2022. cilt: 132 sayı: 260, - s.79-90

10. Dövlətin davamlılığında ərazi suverenliyi //- Naxçıvan:- Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, içtimai elmlər seriyası, - 2022. № 6 (119), - s. 59-64

11. Azərbaycanın parçalanması və Rusiyanın Cənubi Qafqaz siyasəti ilə inzibati ərazilərə bölünməsi: “erməni vilayəti”nin təsisi, - Bakı: - Azərbaycan Hüquq Jurnalı,- 2022. № 3, - с. 4-14

12. Территориальный суверенитет в преемственности государства // II-İnternational Conference on Global Practice of Multidisciplinary Scientific Studies,- Batumi: 26-28 iyun 2022, - с.1317-1327

13. Dövlətin davamlılığı (kontinunitet) konsepsiyası və kontinuiteti şərtləndirən qanunsuz anneksiya // «SCIENCE and TECHNOLOGIES» IV International Scientific and Practical conference PF "International Research Center" Endless Light in Science” , - Almaatı: - 2022, - p. 26-32

14. Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyinin kontinuiteti: anlayış və əsaslar // - Bakı: Qanun, elmi hüquq jurnalı, - 2023. № 7 (345), - s. 3-10

15. Beynəlxalq hüquq baxımından Azərbaycan SSR-in hüquqi vəziyyəti // - Bakı: Polis Akademiyasının Elmi Xəbərləri, Elmi hüquq jurnalı, - 2023. № 2 (38), - s.124-130

16. Преемственность и практическое значение предмета международного права Азербайджанской Демократической Республики // - Moskva: Евразийский юридический журнал. (Московский государственный юридический университет имени О.Е. Кутафина),- 2023. №4 (179), - с.31-34

17. Şəxsi hüquqlar ümumtanınmış adət norması kimi // - Bakı: Polis akademiyasının elmi xəbərləri, - 2023. № 1 (37), - s. 65-71

18. The Founding of the Azerbaijan Democratic Republic and its Historical Significance in Terms of International Law within Azerbaijani Territory: Toponym of Azerbaijan // - Ukraine: Legal Horizons,Scientific and practical law, - 2023. № 1, - с.76-85

19. Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Respublikasının dövlət atributları kontinuitetinin əsası kimi // Global science and innovations 2023: Central Asia, International scientific-practical journal, -Astana: -10-15 Aprel, - 2023, p.33-38

20. Эмиграционное правительство, определяющее преемственность Азербайджанской Народной Республики // Теоретические аспекты юриспруденции и вопросы правоприменения. Сборник статей по материалам LXVIII международной научно-практической конференции «Интернаука», - Москва: - 2023. № 2 (68), - с.86-93

21. Analysis of Russia’s Military Aggression against the Azerbaijan Democratic Republic from the International Legal Perspective // Ukraine: AJEE Access to justice in Eastern Europe Journal,- 2023. № 2(19), - p. 1-16.

Dissertasiyanın müdafiəsi "10" dekabr 2024-cü il tarixində saat 10:00 Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən BED 2.44 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1148, Bakı ş., Zahid Xəlilov-23, 1 korpus, auditoriya 608

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "07" noyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.10.2024
Kağızın formatı:A5
Həcm: 87 642
Tiraj: 100